# İRFAN

№ 66 May 2012 İctimai fikir jurnalı 3 AZN

## YETİŞMİŞ BİR OVUC

# İNSAN

# Redaktordan

İRFAN
May/2012/№:66
ictimai fikir jurnalı
Dövlət Reyestr №: 1763

Təsisçi:
İpəkyolu MMC

Redaktor:
Nurlan MƏMMƏDZADƏ

Məsul katib:
Elşən RZAYEV

Məsləhətçi:
Dr. Abbas QURBANOV

Redaksiya heyəti:
Akademik
Vasim MƏMMƏDƏLİYEV
Prof.Dr. Şahin XƏLİLLİ
Dr.Siracəddin HACI
Dr.Alpay ƏHMƏDOV
Seyid Camal ƏZİMBƏYLİ
Eldəniz SALMANOV
Ramiz MƏMMƏDOV
Səadət MÜRŞÜDOVA
Arif HEYDƏROĞLU
Akif HÜSEYNOV
Fuad QULİYEV

Kompyuter dizaynı:
Ülvi MƏMMƏDOV
Copyright 2011 © All Rights Reserved
Created and supported by "irfan"
Foto:
«İRFAN»

İllik abunə qiyməti:
Ölkədaxili 35 AZN
Xarici ölkələr üçün 60 Avro

Ünvan:
Bakı şəhəri,
Cəfərov Qardaşları küç. 16
Tel: (+994 12) 492 32 23,
493 02 93

www.irfandergisi.com
E-mail
irfandergisi@yahoo.com

Abunə və reklam işlərindən məsul:
Elşad KƏRİMLİ
Tel: 050 379 01 79

Şikayət və təkliflər iniz üçün
bu nömrəyə müraciət edə bilərsiniz

Jurnalın materiallarından istifadə edərkən istinad zəruridir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Hörmətli Oxucu!

Sizi xoş gördük. Yenə günləri tamamlayaraq bir ayı beləcə başa vurduq. Jurnalımızın yeni sayını sizə təqdim edirik. Əvvəlcə 2012-ci ilin abunə kampaniyası haqda sizə xoş xəbərlərimizi çatdırmaq və bu sevinci birlikdə yaşamaq istəyirik. Şükürlər olsun ki, bu il də sizdən tam dəstək aldıq. Abunə olan hər kəsə təşəkkürümüzü bildiririk. Qeyd edək ki, hər il sayımızın artması sinəmizi qabardır. Bizi yeni işlərə həvəsləndirir. Redaksiyamıza ünvanladığınız bir-birindən maraqlı məktublar, ürək sözləriniz yolumuza işıq olur. Kiməsə faydalı oluruqsa, bunun üçün özümüzü bəxtiyar sayırıq.

İndi isə gələk jurnalımızın yeni sayına. Bu sayımızda sizi nələr gözləyir? Bu ayın ana mövzusu "Kamil İnsan Əskikliyi"dir. Cəmiyyətimiz necə yetişir, bu inkişaf gənclərimizə nə cür təsir edir? Hər anını nümunə götürməli olduğumuz əsri-səadətdə yeni yetişən nəsillər necə tərbiyələndirilirdi? Jurnalımızı vərəqləyərkən bu kimi suallara cavab tapacaqsınız. *"Bir ovuc kamil insan"* başlıqlı yazıda bir qrup yetişmiş insanın nələrə qadir ola biləcəyini oxuyacaqsınız. *"Dünyanın ümumi dərdi: keyfiyyətli insan əskiyi"* məqaləsində cəmiyyətlərin möhtac olduğu şəxsiyyətin necə formalaşacağı haqda oxuyacaqsınız. Başqa bir yazarımız *"Markamızın dəyəri"* başlıqlı yazısında hər birimizin insan olaraq hansı dəyəri daşıdığımızdan yazdı. *"Namazı vüslətə çevirmək", "Qul haqqı", "Qorxu və ümid arasında", "Qorxusuz qələm"* və bir sıra maraqlı yazılar sizi gözləyir. Möhtərəm könül insanının qələmindən sətirlərə süzülən *"İman həssasiyyəti"* başlıqlı yazı isə hər zaman olduğu kimi özünəməxsus yerə sahibdir.

Jurnalımızın bu sayında "Azırbaycan Türklərinin Dini-Fəlsəfi Dünyagörüşü: Fəlsəfi Aspekt" adlı yeni kitabı işıq üzü görmüş hörmətli millət vəkilimiz, fəlsəfə üzrə fəlsəfə doktoru **Fazil Mustafa**dan aldığımız müsahibəni sizə təqdim edirik. Ümumiyyətlə bu sayımızda daha iki müsahibəmiz var ki, sizin üçün maraqlı olacağı qənaətindəyik. Yaxın günlərdə "Mübarək Doğum Həftəsi" münasibətilə T.C. Bakı Diyanət İşləri Müşavirliyi tərəfindən təşkil olunan möhtəşəm tədbirdə iştirak üçün Bakıda səfərdə olan T.C. Diyanət İşləri Başqanlığının mütəvəlli heyət sədri **Mazhar Bilgin**dən reportaj alaraq jurnalımızda dərc etdik.

Əziz Oxucu! Jurnalımızın bu sayından etibarən iki yeni rubrika açırıq. *"Ağsaqqal Nəsihəti"* adlanan bu rubrikalardan birində hər ay yaşayan bir el ağsaqqalından müsahibə alaraq ürək sözlərini sizə çatdıracağıq. Buaykı həmsöhbətimiz bir çox rayon və şəhərlərimizdə **Səməd Baba** adı ilə tanınan Səməd Ağalarov oldu. Gəlin. El ağsaqqalımızın nə dediklərini birlikdə mütaliə edək. Digər rubrikamızsa *"Bir Yanlışı Düzəldək"* adlanır. Burada da cəmiyyət arasında yayğın olan bəzi səhv fikirləri, o cümlədən dilimizdə işlənən yanlış sözləri təhlil edəcəyik. Hamımız üçün xeyirli və uğurlu olsun!

Bir daha görüşmək ümidi ilə...

*Sorma hər kişinin əslin izzətindən bəllidir*
*Söhbəti irfan görənlər xidmətindən bəllidir.*
*Nəsimi*


Markamızın Dəyəri
Eldar Kərimov 8

Bir Yanlışı Düzəldək
Məmməd Afiq 13

Namazı Vüslətə Çevirmək
Salih Zeki Meriç 14

Qul Haqqı
Saleh Şirin 16

Əmanət və Qiyamət
Dr. Mehman İsmayılov 18

Ağsaqqal Nəsihəti 20

Müdriklərdən Öyüdlər
Akif Hüseyinli 23

Dahi İslam Mütəfəkkiri İbn Xaldun
İbrahim Erol 24

Qorxu və Ümid Arasında
Mübariz Əlioğlu 26

Bəqərə Surəsinin Fəziləti
Aqil Əliyev 36

T.C Diyanət Vəqfinin Mütəvəlli Heyət Sədri Mazhar Bilginlə Reportaj 38

Qorxusuz Qələm
Hasan Enes Ünlü 40

Mədəniyyətimizdə Təmizlik
Adem Şahin 42

Həsədin Zərərləri
Pərvanə Əfəndiyeva 44

Sual-Cavab
Anar Qurbanov 46

Hörmət, Yoxsa?..
Samir Həmzəyev 48

Hikmət Lövhələri
Kamran Məmmədov 50

Yeni Nəşrlər 52

Həyat Dəftərindən
Ülvi Məmmədov 53

Xəbər 54

BİR OVUC KAMİL İNSAN
Nurlan MƏMMƏDZADƏ 3

KEYFİYYƏTLİ İNSAN ƏSKİYİ
Elşən RZAYEV 5

İMAN HƏSSASİYYƏTİ
Osman Nuri TOPBAŞ 28

Millət Vəkili, Fəlsəfə Üzrə Fəlsəfə Doktoru FAZİL MUSTAFA İLƏ REPORTAJ 10

Nurlan MƏMMƏDZADƏ
nmemmedzade@mail.ru

# BİR OVUC KAMİL İNSAN

Həzrət Ömərin xəlifəlik illərindən bir gün...

Əshabi-kiram bir məclisdə oturub şirin söhbət edərkən haqq ilə batili dəqiqliklə ayırd etməsinə görə "Faruq" adlandırılan Hz. Ömər bir sual verir məclisdəkilərə: "Bu həyatda ən çox arzuladığınız şey nədir?" Səhabələr bir-bir arzularını dilə gətirirlər. Kimisi "bu otaq dolusu qızılım olsa, onu Allah yolunda xərcləmək istərdim", -deyir, kimisi otaq dolusu başqa sərvət istəyir. Hamısının da bir məqsədi var: Allah yolunda xərcləmək, infaq etmək. Xəlifənin bu cavablardan qane olmadığını görən səhabələr eyni sualı Hz. Ömərə verirlər. Görəsən, Rəsulullahın fərasət sahibi olan xəlifəsi Allahdan nə istəyir? Onun cavabı belə olur: *"İstərdim ki, bu otaq dolusu Əbu Ubeydə bin Cərrah kimi insanlar olsun və Allah yolunda xidmət etsinlər."* Kim idi görəsən Əbu Ubeydə bin Cərrah? Nə üçün bu qədər arzulanırdı? Çünki o, Allah Rəsulunun "bu ümmətin əmini" dediyi, xristianların belə ədalətinə güvəndiyi yetişmiş kamil bir insan idi.

Dünyada hər bir xalqın, millətin müzəffər və ya məğlub olması onun yetişdirdiyi insanların mövcudluğuna bağlıdır. Bir könül insanının dediyi kimi: "Hakim millətlərlə məhkum millətlərin arasındakı yeganə fərq bir ovuc kamil insan fərqidir". Ustad Necip Fazıl "Tumrucuq açmaq dərdində olmayan ağac odundur", -buyurmuşdur. Millətlərin gələcək nəsil təlaşında olması, öz insanını yetişdirmə

*Fəxri-Kainat (s.ə.s)-in Mədinəyə hicrət edən kimi ilk gördüyü işlərdən biri məscid tikintisi ilə yanaşı bir elm yurdu inşa etmək oldu. Çünki burada bir ovuc insan yetişdirəcəkdi. Məscidə bitişik Suffə adlandırılan bu yerdə ümmətin gələcəyi üçün fəqihlər, təfsirçilər, dövlət adamları, əmirlər, valilər, komandirlər yetişəcəkdi. Abdullah bin Məsud, Bilal Həbəşi, Ammar bin Yasir, Salman Farsi, Əbu Hüreyrə kimi İslama böyük xidmətləri olan səhabələr məhz bu məktəbin yetirmələri idilər.*

dərdinə sahib olması məhz o millətin və xalqın tumurcuq açma dərdidir. İslam Peyğəmbəri Həzrət Məhəmməd (s.ə.s)-in 23 illik nübüvvət fəaliyyətində ən başlıca vəzifələrindən biri insan yetişdirmək idi. Hər sahədə bacarıqlı, fərasətli bir qrup insan formalaşdırmaq və yeni qurulacaq İslam dövlətinin təməllərini onlarla atmaq, ilahi mesajı dünyaya onlar vasitəsilə çatdırmaq cəhdi içindəydi. Allahın muradı da bu istiqamətdəydi. Həzrət Məhəmməd (s.ə.s)-ə hələ nübüvvət gəlmədiyi halda Hz. Əlini öz yanında saxlamaq istəyi, Zeyd bin Harisənin ilahi qədər nəticəsində xidmət üçün ona hədiyyə edilməsi, sonradan oğulluğa götürülməsi onların gələcəkdəki ülvi və ali vəzifələrinə bir növ hazırlıq mahiyyəti daşıyırdı. Allah-Təala Həzrət Məhəmmədi ta uşaqlıq illərindən xüsusi tərbiyə ilə yetişdirib boya-başa çatdırdığı kimi, ətrafındakı bir sıra insanları da bir müddət sonra çətin və şərəfli bir yolda mühüm işlərə hazırlayırdı. Hansı ki, xüsusi nəbəvi tərbiyə ilə yetişən Həzrət Əli sonralar "elm şəhərinin qapısı" adlandırılacaq, ən ağır günlərdə, ən çətin şərtlər altında Allah Rəsulunun yatağında yataraq hicrət səfərinə çıxmış Peyğəmbərin Məkkədə yarımçıq qalmış işlərini tamamlayacaq, dinin ucalması üçün gedən döyüşlərdə dəfələrlə İslamın bayraqdarı olaraq ön sıralarda yer alacaqdı. Zeyd bin Harisə də İslam tarixində ən ağır günlərdən sayılan Taif günü gözü dönmüş müşriklər tərəfindən daş-qalaq edilən Peyğəmbərin yanında olacaq, bir addım da olsa ayrılmadan özünü ona sipər edəcəkdi. Bədirdən tutmuş Mutəyə qədər bütün cihad və qəzvələrdə qəhrəmanlıqlar göstərəcəkdi. Rəsulullahın olduğu bütün döyüşlərdə ən yaxınında olan bir qrup İslam fədailərindən olacaq və Mutə hərbində orduya sərkərdəlik edərkən şəhadət şərbətini içəcəkdi.

Allah Rəsulunun 13 illik Məkkə fəaliyyətinə baxdığımız zaman görərik ki, O, burada əsasən azlıq təşkil edən bir ovuc müsəlmanın yetişməsi ilə məşğul olmuşdur. Hətta "Allahım, İslamı iki Ömərdən biri ilə gücləndir", -deyə Ömər bin Xəttaba və əsl adı Ömər olan Əbu Cəhlə dua etməsi, onlarla dinə güc qazanmaq istəməsi mövzumuz nöqteyi-nəzərindən çox ibrətlidir. Nəticədə ilahi təqdirlə Ömər bir Xəttab müsəlman olacaq və dinə əvəzsiz xidmətlər edəcəkdi.

Həzrət Peyğəmbər istedad və qabiliyyət sahibi olan insanları seçərək, zərgər dəqiqliyi ilə işləyə bilən misli görülməmiş bir müəllim idi. Ömrü boyu səhabələrini düzgün istiqamətləndirərək, hər kəsə bacarığına görə vəzifələr vermişdir. İslam

alimlərindən Qərafinin dediyi kimi: "Əgər heç bir möcüzəsi olmasaydı, yetişdirdiyi səhabə toplumu Həzrət Məhəmmədin peyğəmbərliyini sübut üçün kifayət edərdi".

Allah Rəsulunun ətrafına baxdığımız zaman yaxınında olan hər bir səhabəsinin şəxsən özü tərəfindən yetişdirilərək müəyyən səviyyəyə gəldiyini, insanlığa xidmət üfüqündə böyük işlərə imza atdıqlarını müşahidə etmək mümkündür. O, Musab bin Ümeyrin müəllimlik edə biləcək qabiliyyətini gördüyü üçün onu İslamla yeni tanış olan Mədinəyə xüsusi tapşırıqla göndərmişdi. Cəfər bin Əbu Talibi isə Həbəşistana hicrət edən qafiləyə rəhbər təyin etmişdi. Məhz Cəfər (r.a)-ın Nəcaşinin önündə tutarlı cavablarla müsəlmanların əmin-amanlığını təmin etməsi bu addımın nə üçün atıldığını açıq-aydın şəkildə ortaya qoyur. Fəxri-Kainat (s.ə.s)-in Mədinəyə hicrət edən kimi ilk gördüyü işlərdən biri məscid tikintisi ilə yanaşı bir elm yurdu inşa etmək oldu. Çünki burada bir ovuc insan yetişdirəcəkdi. Məscidə bitişik Suffə adlandırılan bu yerdə ümmətin gələcəyi üçün fəqihlər, təfsirçilər, dövlət adamları, əmirlər, valilər, komandirlər yetişəcəkdi. Abdullah bin Məsud, Bilal Həbəşi, Ammar bin Yasir, Salman Farsi, Əbu Hüreyrə kimi İslama böyük xidmətləri olan səhabələr məhz bu məktəbin yetirmələri idilər. Onların məişət problemləri ilə də şəxsən Rəsulullah özü maraqlanardı. Bir hədəfi vardı: Nə olur-olsun, bu bir ovuc insan kamil səviyyədə yetişsin. Çünki onları xüsusi vəzifə gözləyirdi. İslamın yayılması, ədalətin dünyada bərqərar olması, gələcək nəsillərin irşadı kimi ağır bir yük onların çiynində idi.

Həzrət Peyğəmbərdən xüsusi dərs alan səhabələr arasında Muaz bin Cəbəli və Zeyd bin Sabiti də görürük. O Muaz ki, gənc yaşda Rəsulullah tərəfindən Yəmənə vali təyin edilmiş, böyük bir bölgəni idarə edəcək səviyyəyə gəlmişdi. Həmçinin Zeyd bin Sabitin hafizə qabiliyyətinin güclü olduğunu görüb başqa dilləri öyrənməyi tövsiyə etmiş və onu dövrünün önəmli dillərini bilən bir tərcüman olaraq yetişdirmişdi. Özü bu hadisəni belə nəql edir: "Rəsulullah mənə "Ey Zeyd, mənim üçün yəhudilərin yazısını öyrən", –dedi. Mən də iki həftə keçmədən o dili öyrəndim." (əl-İstiabə, 1: 561; Tabaqat, 2: 358) Həmçinin qaynaqlarda Hz. Zeydin rumların, həbəşlərin dilini, o cümlədən, Süryani dilini bildiyi yer alır.

*Həzrət Peyğəmbər istedad və qabiliyyət sahibi olan insanları seçərək, zərgər dəqiqliyi ilə işləyə bilən misli görülməmiş bir müəllim idi. Ömrü boyu səhabələrini düzgün istiqamətləndirərək, hər kəsə bacarığına görə vəzifələr vermişdir. Qərafinin dediyi kimi: "Əgər heç bir möcüzəsi olmasaydı, yetişdirdiyi səhabə toplumu Həzrət Məhəmmədin peyğəmbərliyini sübut üçün kifayət edərdi".*

İslam tarixində xüsusi yeri olan səhabələrlə bağlı bu kimi misalların sayını kifayət qədər artırmaq mümkündür. Elə isə bir ovuc insan deyib keçməyin. Yetişmiş bir ovuc insan dünyanı dəyişməyə qadirdir. Sadəcə onları doğru istiqamətləndirmək və istedadlarını kəşf edərək inkişaf etdirmək lazımdır. Bu gün İslam dünyasının ümumi mənada buna ehtiyacı var. Hər xalq, hər millət gələcəyini özü müəyyən edir. Gənclərimiz harada yetişirsə, gələcəyimiz də o istiqamətdə olacaqdır, bunu unutmayaq.

Elşən RZAYEV
elshanrza@hotmail.com

## BƏŞƏRİYYƏTİN ÜMUMİ DƏRDİ:

# KEYFİYYƏTLİ İNSAN ƏSKİYİ

Millətlər yeni nəsillərlə öz varlıqlarını davam etdirirlər. Gələcəyini təminat altına almaq istəyən hər millət sağa-sola xərclədiyi sərvət qədər, bir sıra imkanları da sabahın böyük insanları olacaq övladlarının inkişafına sərf etməlidir. Çünki bir ağacın nəsil və növünün davam etdirilməsi üçün toxum və ya çəyirdək nədirsə, insan nəslinin davam etdirilməsində də övlad odur. Hər otuz-qırx ildə bir millətin ən işgüzar və səmərəli təbəqəsini dünənin uşaqları təşkil edirlər. Ona görə də gələcəyini düşünən hər millət bu gün əlində olan imkanların böyük bir qismini nəsillərin keyfiyyətli insan kimi yetişdirilməsinə sərf etdiyi təqdirdə bitməz-tükənməz bir sərvət əldə etmiş olur.

Kainatda ən dəyərli varlıq keyfiyyətli insandır. Hər şey keyfiyyətli insanla məna qazanır. İnsan keyfiyyətli olmadıqda ən qiymətli əşyanın belə onun əlində bir dəyəri olmur. Həqiqətən də günümüzdə bir çox dəyərlərin alt-üst olmasının əsas səblərindən biri sizcə insanlığın öz dəyərini itirməsi deyilmi?

Dünyanın ən böyük dərdi keyfiyyətli insan əskiyidir. Bu gün dünyada neçə-neçə zəngin sərvət sahibi olan fərd və millətlər var ki, varlıq içərisində yoxluq yaşayırlar. Deməli, sərvəti yerli-yerində istifada edə biləcək keyfiyyətli insanlar olmazsa, sərvət fəlakət səbəbi olar. Çünki mal silah kimidir, istifadə edildiyi yerə görə ya faydalı, ya da zərərli olur.

Hər hansı bir millətin maddi sərvətindən artıq yetişmiş insanları varsa, o millət xoşbəxt millət sayılır. Maddiyyatın hökm etdiyi deyil, maddəyə hökm edən, sərvətin əsiri deyil, əfəndisi olan könlü və gözü tox kamil insanlar millətin həqiqi xəzinəsidir.

İnsanın yaradıcısı olan Allahın istədiyi də bu keyfiyyətdəki insandır. Qurani-Kərimdəki qissələr, təmsillər, xəbərdarlıq və müjdələrin hamısı insanı bu hədəfə istiqamətləndirir. Hz. Peyğəmbərin Qur-an məktəbində yetişənlər bəşəriyyətə və insani dəyərlərə nümunə təşkil edirlər.

İnsan tərbiyəsinin maddi sərvətlərdən daha mühüm olduğunu Hz. Peyğəmbər (s.ə.s) necə də gözəl ifadə etmişdir:

"Bir ata övladına gözəl tərbiyədən daha xeyirli bir miras qoymamışdır." (Tirmizi, Birr 33)

Bu tərbiyə ilə həyatını formalaşdıran bir atadan nə üçün övladlarına maddi miras qoyub getmədiyini soruşduqda belə cavab vermişdir: "Əgər onlara yaxşı tərbiyə vermişəmsə, özləri sərvət qazanarlar. Yox, əgər yaxşı tərbiyə verməmişəmsə, qoyub getdiyim sərvəti də dağıdarlar."

Keyfiyyətli insan cəmiyyət üçün xeyirin, doğruluğun və gözəlliyin rəmzidir. Ancaq belə insanların az olduğunu Hz. Peyğəmbər (s.ə.s) belə bildirir:

"İnsan cəmiyyəti demək olar ki, içərisində yaxşı cins yük və minik dəvəsi olmayan yüz dəvəlik bir karvandır." (Təcridi Sarih, hədis 2117)

Bu gün küçələrdən keçmək olmur adamların sıxlığından. Buna baxmayaraq əksər insanın dilindən düşməyən bir sözlə tez-tez qarşılaşırıq: "Adam lazımdır, adam axtarıram." Mərhum şairimiz Rəsul Rza da: "Dünya dolu adamdır, Dərdimi kimə deyim?", -deyirdi. İstər ümumi mənada, istərsə də xüsusi olaraq "adam axtarıram" deyənlərə "bax, küçələr adamla doludur" şəklində cavab verilmir. Çünki axtarılanın sadəcə "adam" olmadığını, əslində axtarılanın "insan kimi adam" olduğunu hamı bilir. Həqiqətən də "filankəs insan adamdır" ifadəsini işlədirik, ancaq görəsən gördüyümüz adamlar və ya elə bizim özümüz bu sözün əhatə dairəsinə daxil ola bilirikmi? Cavabı heç düşünmədən verək: "yox". Çünki cəmiyyətdə "insan adam", yəni keyfiyyətli insan problemi var. Keyfiyyətli insan, yəni etibarlı, sözünün üstündə duran, əmanətə xəyanət etməyən, sadiq, doğru, dürüst insan…

*Hər hansı bir millətin maddi sərvətindən artıq yetişmiş insanları varsa, o millət xoşbəxt millət sayılır. Maddiyyatın hökm etdiyi deyil, maddəyə hökm edən, sərvətin əsiri deyil, əfəndisi olan könlü və gözü tox kamil insanlar millətin həqiqi xəzinəsidir.*

Əslində tarixin hər dövründə keyfiyyətli insan qıtlığı yaşanmışdır. Belə ki, bizim eradan əvvəl belə filosof Diogenin həqiqi insan axtardığı üçün günün günorta çağı fənərlə gəzdiyi və bu vaxt fənərlə nə axtarırsan deyənlərə "adam axtarıram" dediyi tarix kitablarında qeyd edilən bir faktdır. İnsan əskiyi və ya həqiqi insana olan ehtiyac hər dövrdə özünü göstərmişdir.

Unutmamaq lazımdır ki, dünya insana bir əmanətdir. Ona görə də insan ilk növbədə əmin (güvənilən, etibar edilən) olmalıdır. Hz. Peyğəmbərin məşhur xüsusiyyəti də bu olmuşdur. Elə buna görə də hələ peyğəmbərlikdən əvvəl belə Məhəmmədul-Əmin olaraq çağırılırdı. Bir hədisi-şərifdə də belə buyurulur: "Əmin (güvənilən) olmayan insanın imanı da yoxdur." (Müsnəd, 3/135)

Eldar KƏRİMOV
canyanar@yahoo.com

# MARKAMIZIN DƏYƏRİ

Geyindiyimiz paltarlardan, işlətdiyimiz telefonlara, istifadə etdiyimiz qol saatlarından idarə etdiyimiz maşınlara qədər hər şeyin markasına xüsusi diqqət yetiririk. Xarici və bahalı markalar demək olar ki, həyatımızın ayrılmaz bir hissəsinə çevrilib. Ona görə yox ki, hamımızın imkanı buna çatır. Ona görə ki, ilk növbədə istifadə etdiyimiz əşyaların keyfiyyəti haqqında onun markası xəbər verir. Tanınmış və etibarlı bir marka olduğu zaman onu heç tərəddüd etmədən baha qiymətə olsa belə alıb istifadə edirik. Bir dəfə istifadə edib xoşlamadığımız bir maldan isə bir daha alıb istifadə etmirik. Hətta ətrafımızdakı insanları da o firmanın mallarını almamağa çağırırıq. Aldığımız şeyin gözəlliyi bir o qədər yaxşı olmasa da onu istehsal edən firmanın adı ona xüsusi dəyər və gözəllik qazandırır. Hətta bahalı markalardan istifadə etdiyimiz zaman ətrafımızdakı insanları da qısqandırmaqdan çəkinmirik. İnsanlara kimliyimizi, zövqümüzü və həyat şəraitimizi istifadə etdiyimiz və bahalı firmalardan aldığımız əşyalarla çatdırmağa çalışırıq. Nə qədər özümüzü sadə göstərməyə çalışsaq da imanımızdakı zəiflik və boşluqlar bunu etməyimizə mane olmur.

Bahalı maşınlardan istifadə edən insanlara həsrətlə baxıb, məclislərdə əyin-başı yerində olan insanların yanında oturmağa səy göstəririk. Şəhərdə gəzərkən belə yanımızda özümüzə uyğun birinin olmasına xüsusi diqqət yetirməyə çalışırıq. Eyni zamanda ünsiyyətdə olduğumuz dostlarımızın və ailə quracağımız insanların belə əsl-nəcabətinə fikir veririk. Onların hansı ailədə böyüdüyünə və hansı nəslin davamçısı olduğuna ba-

xırıq. Onlardan bizə toxunacaq xeyir və zərərləri dəqiqliklə ölçüb-biçirik. Bu bizim o insanlara qarşı etibar etməyimizə vasitəçilik edəcək səbəblərimizdir. Bəs bizi necə tanıyır insanlar? Bizə necə dəyər verib, necə etibar edirlər?

Bunu hər birimiz çox yaxşı bilirik ki, özümüzü tanıtmağa heç bir ehtiyac yoxdur. Bizi tanıdacaq reklamlarla çoxdan tanışdır insanlar. Bizi, bizə vurulan markadan tanıyır hər kəs. Hissələrimiz fərqli yerlərdə toplansa da eyni firmanın məhsuluyuq. Bu markanın adı altında çox işlər görmüşük. Doğrularımız da olub, səhvlərimiz də. Hamını özümüzə inandırıb sevgilərini qazanmışıq ən azından. Müsəlmanam dediyimiz zaman ətrafımızdakıların zehnində bizim haqqımızda kifayət qədər müsbət məlumat formalaşıb. Hz. Peyğəmbərin yolunu getdiyimiz üçün bizdən əmin olub, ən dəyərli şeylərini bizə əmanət ediblər. Dediyimiz sözə inanıb, etdiyimiz əməllərə bel bağlayıblar. Varımıza, dövlətimizə deyil, yolçusu olduğumuz yola hörmət ediblər. Adımıza-sanımıza deyil, mənəvi dünyamıza baş əyiblər. Uzun sözün qısası İslam markası altında sevib dəyər veriblər bizə. Bizi biz olduğumuz üçün yox, İslamı təmsil etdiyimiz üçün sevib insanlar. Biz də bütün bunlardan istifadə edib həyatımızı, həyat şəraitimizi yaxşılaşdırmışıq. Cəmiyyət arasında söz sahibinə çevrilmişik. Bir sözümüzlə çox müşküllərin həllinə nail olmuşuq. Ancaq burada əsas məsələ bizim markamıza etibar edib bizə güvənən insanlara qarşı bu etibarı doğrultmağımızdır. Etdiyimiz sadə bir səhv bütün fikirləri alt-üst etməyə qadirdir. Markamız etibralı olduğu halda bizim nöqsanlı olmağımız həm özümüzə, ən əsası da markamıza xələl gətirir. Bizim markamızın prinsiplərinə uyğun olmayan davranışlarımız insanların zehnində bizdən çox markamızın naqisliyi fikrini formalaşdırır. Məhsulu olduğumuz firmanın etibarının itməməsi üçün bəlkə həyat tərzimizi yenidən gözdən keçirməliyik. Bütün davranışlarımıza diqqət edib, atdığımız hər addıma fikir verməliyik. Mən əminəm ki, sizlərə də ətrafınızdakı insanlar tərəfindən iradlar tutulub. "Sən necə müsəlmansan? Sənin dinin buna icazə verirmi? Bu iş müsəlmana yaraşırmı?" kimi suallar da ünvanlanıb sizlərə. Bəlkə də saysız insanlar bizə və bizim həyat tərzimizə baxıb İslam dinini qəbul etdiyi kimi eyni zamanda bizə baxıb İslamdan da uzaqlaşıb. Bir şeyi unutmamaq lazımdır ki, bütün bunların hesabını bizdən soruşacaqlar. Müsəlman adı altında min-bir oyundan çıxmaq sadəcə şəxsiyyətimizi deyil, eyni zamanda sonuncu və mükəmməl din olan İslamı da alçaldır insanların gözündə. Sadəcə bizim adımıza deyil, bütün müsəlmanların adına xələl gətirir düşünmədən etdiyimiz əməllərimiz. Heç bir maddi dəyərlə ölçülməyən markamızı dəyərsiz əməllərimizlə gözdən salmayaq. Bizə bu markanı sevdirən insanlar kimi biz də başqalarına sevdirməyə çalışaq.

Bir şeyi də unutmayaq ki, markamızın dəyəri, müsəlmandır deyildiyi zaman hər kəsin bizə güvənməsi, etibar etməsi və bizdən əmin olmasıdır.

*Markamız etibralı olduğu halda bizim nöqsanlı olmağımız həm özümüzə, ən əsası da markamıza xələl gətirir. Bizim markamızın prinsiplərinə uyğun olmayan davranışlarımız insanların zehnində bizdən çox markamızın naqisliyi fikrini formalaşdırır. Məhsulu olduğumuz firmanın etibarının itməməsi üçün bəlkə həyat tərzimizi yenidən gözdən keçirməliyik.*

# Millət vəkili, fəlsəfə üzrə fəlsəfə doktoru FAZİL MUSTAFA: "Ən böyük milli-mənəvi dəyərimiz İslamdır."

**İrfan jurnalı:** *Fazil müəllim, artıq oxucular sizin bir neçə kitabınızla tanışdır. Bu yaxınlarda işıq üzü görən "Azərbaycan türklərinin dini-fəlsəfi dünya görüşü: fəlsəfi aspekt" adlı kitabınız hansı zərurətdən doğdu?*

**Fazil Mustafa:** Cəmiyyət siyasi lider mövqeyinə iddialı olan şəxslərin yalnız güncəl problemlərə münasibəti ilə deyil, həm də onların dünyagörüşləri, ideoloji baxışları, milli dəyərlərə yanaşma üslubları ilə yaxından tanış olmaq istəyir. Bu baxımdan biz də cəmiyyətə müxtəlif janrda olan əsərlər formatında öz görüşlərimizi təqdim etməyi zəruri sayırıq. "Azərbaycan türklərinin dini-fəlsəfi dünyagörüşü: fəlsəfi aspekt" əsəri bizim din sistemimizin tarixi inkişafı və mövcud durumu ilə bağlı ümumiləşdirilmiş baxışlarımızı ifadə edir və bu aktual mövzuda apardığımız tədqiqatlardan biri kimi oxucuların müzakirəsinə verilir. Bu elmi tədqiqat işi Azərbaycan türklərinin dini-fəlsəfi dünyagörüşü probleminə həsr olunmuşdur və müasir Azərbaycan cəmiyyətinin din və inanc sisteminin bütün aspektlərinin anlaşılması üçün ciddi əhəmiyyət daşıyır. Bu kitabın ərsəyə gəlməsində əsas zərurət cəmiyyətimizin tarix boyu əxz etdiyi və yaşadığı dini həyatın ictimai tərəqqimizə mane olacaq bir səviyyəyə çatmasına olan etirazla bağlıdır. İslam kimi mütərəqqi bir dinin gerçək mahiyyətindən uzaqlaşmanın fəsadlarının ortadan qaldırılması istiqamətində görüşlərin irəli sürülməsi, dini dünyagörüşümüzün yanlış təsəvvürlərlə doldurulmasının tənqidi hər halda yeni və faydalı müzakirələrin başlamasına imkan yarada bilər. Bütün hallarda müharibədə məğlub olmuş, müəyyən tarixi itkilərə məruz qalmış bizim kimi yeni cəmiyyətlərin dirilişinin tək yolunun doğru bir iman anlayışından keçdiyini vurğulamamız təsadüfi sayılmamalıdır. Kitabın ana xətti doğru iman sisteminin açılışı üzərində qurulmuşdur.

*İslam kimi mütərəqqi bir dinin gerçək mahiyyətindən uzaqlaşmanın fəsadlarının ortadan qaldırılması istiqamətində görüşlərin irəli sürülməsi, dini dünyagörüşümüzün yanlış təsəvvürlərlə doldurulmasının tənqidi hər halda yeni və faydalı müzakirələrin başlamasına imkan yarada bilər.*

**İrfan jurnalı:** *Bir millətin formalaşmasında dini kimliyin rolu nə kimi əhəmiyyət kəsb edir?*

**Fazil Mustafa:** Hər bir insan üçün onun milli kimliyi ən mühüm dəyər ola bilər. Ancaq əxlaq komponentləri ilə təhciz olunmamış bu milli kimliyin bəşəriyyət üçün faydalı fenomenə çevrilməsi mümkünsüz görünür. Bu zaman artıq dinin təqdim etdiyi əxlaqın hansı keyfiyyətdə mənimsənilməsi xüsusi önəm daşımağa başlayır. Sadə şəkildə desək, dinləri insanların milli kimliyinin keyfiyyət göstəricisi kimi tanıtmaq mümkündür. Bu baxımdan da "ən gözəl əxlaqın tamamlayıcısi" olaraq tanınan İslam dininin Azərbaycan cəmiyyətində doğru anlaşılmamasının acı nəticələri barədə müzakirə açmalı oluruq. Bəzilərinin "Allahın dini" əvəzinə "Ərəbin dini" deyə təhrif etdikləri, şəkilcə müsəlman kimliyinə bürünüb mahiyyətcə İslam əxlaqına tərs bütün neqativ görüşləri yaşayan bir cəmiyyətin formalaşmasında təbii ki, dinin prinsiplərinin təsirləri böyükdür, ancaq bu təsirlər arzuladığımız ədalətli münasibətlər sisteminin yaranmasına gətirib çıxarmamışsa, demək ki, bu sahədə bir natamamlıq var. Bu yarımçıqlığımız mükəmməl saydığımız İslamdan deyil, bizim İslam haqqında yanlış təsəvvürlərimizdən qaynaqlanır.

**İrfan jurnalı:** *Bu gün Azərbaycan müxtəlif sahələrdə inkişaf etməkdədir. Eyni zamanda dini sahədə də bu kimi dəyişikliklər müşahidə olunur. Sizcə dini kimlik məsələsində Azərbaycan modeli necə olmalıdır?*

**Fazil Mustafa:** Azərbaycanda təbii olaraq din sistemində çox maraqlı təzahürlər ortaya çıxır. İlahiyyat profilli məktəblərin, dini biliklərə sahib adamların sayının artması, dini ədəbiyyatın sürətlə yayılması son illərdə daha çox müşahidə olunur. Bununla yanaşı Azərbaycanın din modelinin arayışları da cəmiyyət həyatının bütün sferalarında diqqətlə izlənilir. Hicablı şəkil, hicablı təhsil və başqa mövzular hələ də gündəmdə aktuallığını saxlayır. Fikrimcə, bu məsələlərin müzakirəsi, müxtəlif təklif və təşəbbüslərin ortaya qoyulması narahatçılq doğrumamalıdır. Doğru modelin tapılması üçün müxtəlf görüşlərin ələkdən keçirilməsi ancaq faydalı olardı. Bütün hallarda Azərbaycanda bu sahədə əsas problem özünəməxsus modelin tapılmasında deyil, tarixən formalaşan adət-

lərlə dinin dəqiq sərhədlərinin müəyyən olunmasıdır. Cəmiyyətimiz Quran İslamından daha çox Mərasim İslamı yaşamaqdadır ki, bu da zehnlərdə olan qarışıqlığın əsas səbəblərindəndir.

**İrfan jurnalı:** *Sizcə, Azərbaycan gənci əcdadımızın çoxəsrlik milli-mənəvi irsinə söykənərək inkişaf edirmi?*

**Fazil Mustafa:** Azərbaycan gəncliyi üçün ilk növbədə dinin, tarixi-milli dəyərlərin gerçək mənasını anlamaq vacibdir. Bunun doğru aşılanması isə təhsil sisteminin əsas vəzifələrindən olmalıdır. Təəssüf ki, bu biliklərin əldə olunması üçün müəyyən əngəllər və bir sıra halda istəksizlik də var. Hansı gənclik formalaşdırılması bütün cəmiyyətlərin qarşısında duran və cavabı çətin tapılan suallardandır. Hər halda mənim düşüncəmə görə ən böyük milli-mənəvi dəyərimiz İslam dinidir və Azərbaycan gəncliyi iman yönü ilə möhkəmlənməsə öz ölkəsinin aparıcı gücünə çevrilə bilməyəcək.

**İrfan jurnalı:** *Hörmətli Fazil müəllim, çox dəyərli vaxtınızı bizə ayırdığınız üçün, eyni zamanda Azərbaycan oxucusuna belə bir kitab təqdim etdiyiniz üçün İrfan jurnalı olaraq sizə təşəkkür edirik. Bu kimi uğurlu layihələrinizin davamını gözləyirik.*

**Fazil Mustafa:** Mən də öz növbəmdə belə bir jurnal ərsəyə gətirdiyiniz üçün sizə təşəkkür edirəm.

*Hər bir insan üçün onun milli kimliyi ən mühüm dəyər ola bilər. Ancaq əxlaq komponentləri ilə təhciz olunmamış bu milli kimliyin bəşəriyyət üçün faydalı fenomenə çevrilməsi mümkünsüz görünür. Bu zaman artıq dinin təqdim etdiyi əxlaqın hansı keyfiyyətdə mənimsənilməsi xüsusi önəm daşımağa başlayır.*

Məmməd AFİQ

# ZƏNCİ, YOXSA QARADƏRİLİ?

**"Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir."** (Rum surəsi, 22-ci ayə)

Başlıqdan da gördüyünüz kimi bu yazıda söz açacağımız mövzu artıq dünyanın qloballaşması ilə dilimizdə tez-tez işlənməyə başlayan "zənci" kəlməsidir. Mövzuya girmədən əvvəl qeyd edək ki, insanların müxtəlif rəngə sahib olmaları onların bir-birindən üstünlüyünə əsas vermir. Bu, tamamən Allahın yaratma möcüzəsidir və dini inancımıza görə irqçilik, şovunistlik qəbuledilməz təmayüllərdəndir. Bu haqda kifayət qədər ayə və hədis vardır.

Bir neçə il bundan əvvəl keçən əsrin 50-60-cı illərində həyatını və çalışmalarını Amerikadakı qaradərili müsəlmanların haqlarının müdafiəsinə, o cümlədən İslamın onlar arasında yayılmasına həsr etmiş MalcolmX-in[1] amerikalı yazar Alex Halley tərəfindən qələmə alınmış həyat romanını oxumuşdum. Kitabda xüsusilə diqqətimi çəkən bir mövzu ilə qarşılaşdım. Məhz həmin yeri sizinlə paylaşıram. Mərhum mücahid belə deyirdi:

***"Zənci sözü və bu sözün digər dillərdəki qarşılığı qaradərili insanları alçaltmaq və xor görmək üçün uydurulmuş bir sözdür. Heç bir əsası və istinadı yoxdur. Uzun illər bundan əvvəl qaradərili insanları kölələşdirən ingilislərin, amerikalıların ortaya atdığı bir kəlmə olub, təhqir ifadə edir. Dərisi ağ olan insanlarla yanaşı, eyni zamanda qaradərili insanların da şüur altına onların həqir məxluqlar olduğunu aşılayır. İnsanı alçaldan bu sözün hər dildə uydurulmuş bir qarşılığı var..."***

Düşündüyümüz zaman görərik ki, həqiqətən də haqqında bəhs etdiyimiz irqin mənsublarına dilimizdə qaradərili deyilir. Dini ədəbiyyatımızda da onlardan söz açıldıqda qara ifadəsi işlənir. Həzrət Peyğəmbər hədisi-şərifində "Ağın qaraya heç bir üstünlüyü yoxdur", -buyurur. Dinimizin ikinci qaynağı olan hədislərdə və klassik İslam kitablarında ağları və qaradərili insanları ifadə etmək üçün yalnız rəngə aid xüsusiyyətlərindən yola çıxılaraq "əbyad" (ağ) və "əsvəd" (qara) sözü işlənir. Yaxud da Peyğəmbərimizin onlar haqda danışarkən "həbəşlilər" dediyini oxuyuruq ki, bu da onları yaşadıqları yerə görə tanıdan bir deyimdir. İrqçi zehniyyətsə qaradərili insanları fərqli isimlərlə adlandırmağa, uydurulmuş sözlərdən istifadə etməyə başladı. Bu sözlərdən biri də dilimizə "zənci" olaraq nüfuz etdi.

Bu gün ingilis dilində qaradərili insanı tərif etmək üçün istifadə olunan sözlərin 20-dən çoxu "qara" sözü ilə heç bir şəkildə əlaqəli deyil. Bu sözlər arasında nig, nigga (bu ikisi negrodan gəlir), darkie, cufee, darkey, coon kimi arqo deyimlər də yer almaqdadır. Bütün bu sözlərin dilimizdəki qarşılığı isə zəncidir.

***Nəticə: Qaradərili demək doğru, zənci demək yanlışdır.***

1. İlk dönəmlərdə ifratçılıq edərək qaraların ağlardan üstün olma düşüncəsini müdafiə etsə də, sonralar əsl islami anlayışa görə bütün insanların bərabər olduğu qənaətinə gəlmiş və haqqın carçısı olmuşdur.

İRFAN MƏCLİSİ
Salih Zeki MERİÇ
salihzekimeric@yahoo.com

# NAMAZI VÜSLƏTƏ ÇEVİRMƏK

Böyük vüslət hazırlığına əllərimi yuyaraq başlayıram. Əllərimi suyun altına tutduğum zaman damarlarıma işləyən bir həyəcan bürüyür hər tərəfimi. Suyun bərraqlığı qəlbimə fərəh hissi verir. Tökülən hər damladan xoş bir səs gəlir. Büllur kimi şəffaf damlalar gözlərimi qamaşdırır. Hər bir damla vüslət həsrətinin mərkəzində, zikrin dərinliyində, təslimiyyət məqamındadır.

Vüslət üçün dəstəmazı bu duyğularla almaq şərtdir. Bəli, əvvəlcə əllər təmizlənməlidir bütün kirlərdən. Sanki günahlar tökülür. Bağı açılır əllərimin. Sonra üzümdə su dənəcikləri bir-birinə qovuşur. Hər bir damla əllərimi doldurur və üzümü yuyur eşqlə. Ah! Suyun bəxş etdiyi fərəhlik hissi necə də xoşdur! Üzümə, gözlərimə toxunur. Dəstəmaz necə də mükəmməl paklanmadır. Rəbbimin hüzurunda təmiz və pak durmaq üçün nə mübarək bir əməldir.

*Ağzıma, burnuma su verirəm sonra.*

*Ya Rəbbi, tövbələr olsun dilimlə işlədiyim günahlarım üçün.*

*Tövbələr olsun gözlərimlə, qulaqlarımla işlədiyim günahlarım üçün.*

Tövbələr olsun qəlbimdəki qəflətimə və nemətlərinə layiqiylə şükür edə bilmədiyim üçün.

Qəlbimə tərifi imkansız bir həyəcan dolur. Bir azdan ilahi hüzurda dayanacağam. Bir azdan vüslətin eşiyinə başımı qoyacağam. "Mən gəldim, Ya Rəbbi! Mən gəldim, günahımla, acizliyimlə, biçarə qulun gəldi. Qapına gəldi. Sənə gəldi", -deyəcəyəm.

Qollarımı yuyuram. Sanki bütün bədənim işlədiyim günahlardan təmizlənir. Növbə ayaqlarıma çatır. Hansı yolda günah işlədi bu ayaqlar? Hansı dalanlarda gəzibdolaşdı? Nə vaxt istiqamətdən çıxdı? Və kimə yönəldi bu addımlar qəflət içində? Günah yüklü bu bədəni necə daşıya bilər bu ayaqlar? Ayaqlarıma dəyən sular bir nizam verir istiqamətimə, yol göstərir. Dümdüz olmağı təlqin edir.

Dəstəmaz sona çatır.

*Həmd olsun, dəstəmaz aldırana.*

*Həmd olsun, dəstəmaz suyunu verənə.*

*Həmd olsun, dəstəmaz alma idrakını verənə.*

*Həmd olsun, həmd nemətini bəxş edənə.*

Özümə sığışa bilmirəm. Quş kimi xəfiflədim. Qəlbimə sevinc dolur. Ürəyim yerindən çıxacaqmış kimi döyünür. Dəstəmazla sanki qanad taxıram özümə. Pərvazlara qonan quşlar kimi "hu" səsləri yüksəlir içimə qurduğum məscidlərdən.

Səccadəm… Kim bilər nə qədər qafil səcdələr etdim sənin üstündə. Neçə dəfə səni tərk edərcəsinə qıldım namazlarımı. Səmimi qəlblə üstündə namaz qıla bilmədiyim üçün dəfələrlə incidin məndən. İndi yenidən gəldim. Sənin üstündə yönəlirəm qibləyə. Bir an şairin misraları gəlir ağılıma;

*Məni kimsəciklər öpməz madam,*
*Öp məni alnımdan, sən öp səccadəm!*

Niyyət edirəm.

*Niyyət etdim, ya Rəbbi sənin rizan üçün sübh namazının sünnəsini qılmağa. Döndüm qibləyə, qibləm Kəbəyə.*

Kəbə, hardasan? Sənə döndüm. Sən Rəbbimin evisən. Nəzərgahısan. Sənə yönəldim, ya Rəbbi! Bədənimlə, qəlbimlə, ağlım və fikrimlə Sənə yönəldim.

Allahu Əkbər.

Əllərimi qaldırıb səsli təkbir alıram. Allahu Əkbər deyə nərə çəkmək istəyirəm. Səhərin tənhalığında, quşlar zikrə dalmışkən, kainatın bu qədər səssizliyində ərşin qatlarında əks-səda verməsini istəyirəm səsimin: Allahu Əkbər.

Hər şey arxada qalsın. Hər şey.

Uşaqlarım, həyat yoldaşım, dostlarım, evim, işim.

Sabahkı günə aid qorxularım.

Ölkədəki siyasi və iqtisadi problemlər.

Benzinin qiymət artımı.

Hər gün bahalaşan həyat şərtləri.

Telefon, su və elektrik ödəmələri.

Allahu əkbər. Hamısını tərk edirəm.

Hamısı artıq arxada qaldı, ya Rəbbim! Hüzuruna gəldim.

Sübhanəkə Allahummə deyirəm. Və həmd edirəm. Fatihəni oxuyuram sonra. Fatihə nə qədər gözəl bir surədir. Açdıqca açır qəlbimin pərdələrini. Aləmlərin Rəbbinə həmd edirəm. Həmd etmək nə qədər gözəl bir duyğudur. Həmd etdikcə qəlbim əriyir.

"ər-Rəhman", -deyirəm, "ər-Rahim", -deyirəm sonra.

"Səndən kömək diləyirəm və Sənə qulluq edirəm, ya Rəbbi", -deyirəm.

Yüksək bir dağın təpəsindən sonsuz dərinliyə baxıram sanki. Rəhməti və mərhəməti sonsuz olan Rəbbimin qapısında vüslətin ən alisini yaşayıram.

Sonra rüku. Hər şey rükudadır mənimlə. Ağaclar, dağlar, daşlar…

Səmiallahu limən hamidəh; Özünə Həmd edənləri eşidən Allahım! Budur, başımı qaldırdım rükudan. Məni səcdə şərəfiylə şərəfləndir. Səcdəyə qapanıram.

Ah səcdə! Nə böyük nemətsən. Əyilməyən başımı əydirdin. Rəbbimin ucalığını səcdələrdə tapmaq nə gözəl bir duyğu. Rəsulullah "Səcdə möminin meracıdır", -deyir. Meracda vüslətin ən alisi yaşanmışdı. Mömin də öz meracını göz yaşıyla islatdığı səccadəsində, səcdələrlə yaşamalıdır.

Ya Rəbbi, bizə əsl merac ola biləcək səcdələr, namazlar qismət et. Sənə həmd edən dil, səni düşünən ağıl, səni zikr edən ürək lütf eylə!

*Səccadəm… Kim bilər nə qədər qafil səcdələr etdim sənin üstündə. Neçə dəfə səni tərk edərcəsinə qıldım namazlarımı. Səmimi qəlblə üstündə namaz qıla bilmədiyim üçün dəfələrlə incidin məndən. İndi yenidən gəldim. Sənin üstündə yönəlirəm qibləyə. Bir an şairin misraları gəlir ağılıma;*
*Məni kimsəciklər öpməz madam,*
*Öp məni alnımdan, sən öp səccadəm!*

Saleh ŞİRİN
salehsirin@hotmail.com

# Qul Haqqı

Yer üzündəki varlıqların ən mükəmməli insandır. Çünki o, ən gözəl şəkildə yaradılmış, ağıl nemətilə zinətləndirilmişdir. İnsan üçün başqa insanlarla tanış olmaq, yardımlaşmaq, onlarla birlikdə yaşamaq ən təbii ehtiyacdır. Yer üzündə firavan həyat sürmək, Allahın saysız nemətlərindən lazımi ölçülər içərisində faydalanmaq, nəslinin davamı və ehtiyacları qarşılamaq üçün toplu halda yaşamağa bağlıdır. Cəmiyyət halında yaşamaq qarşılıqlı haqq və məsuliyyətləri də bərabərində gətirməktədir.

İnsanlar arasındakı bütün əlaqələr "fərdlərin qarşılıqlı haqları" içərisində yer almaqdadır. Ata-ana, ailə-övlad, qonşu, yoldaş, işçi-müdir haqları bu növ haqlardandır. İnsanları şərəfli və ən gözəl surətdə Yaradan, onlara sayılmayacaq qədər çoxlu nemətlər və bəzi haqlar da lütf etmişdir. Bu haqların qorunması üçün də bəzi qanun və qaydalar qoymuşdur. Allah-Təala qullarına bəxş etdiyi belə bir haqqı tapdamağı günah saymaqdadır. Rəbbimiz Özünə qarşı edilən xəta və günahları bağışladığı halda, qul haqqını bu əfvin xaricində tutmuşdur. Qul haqqını bağışlamağı haqsızlığa uğrayan bəndəsinin öhdəsinə buraxmışdır. Ona görə də hər hansısa bir qul haqqı səbəbilə bir kimsə tövbə edəcəksə, əvvəlcə haqqına girdiyi, haqqını tapdadığı kimsədən halallıq alması şərtdir.

Qul haqqı o qədər ciddi bir məsələ və o qədər mühüm bir haqdır ki, Allah-Təala şəhidin bütün günahlarını bağışladığı halda, üzərində kiminsə qul haqqı varsa, o haqqı, o xətanı bağışlamır. Peyğəmbərimiz (s.ə.s) belə buyurur: *"Allah-Təala şəhidin, qul haqqından başqa bütün günahlarını bağışlayar."* (Müslim). Canını Allah yolunda qurban edən bir şəhid üçün vəziyyət belədirsə, digər insanların tapdadıqları qul haqlarını halallaşmadan bağışlatmaları mümkün olarmı heç?!

Qul haqqına girməyin axirətdəki çətin aqibətini, əzabını Peyğəmbərimiz (s.ə.s) belə bildirir: *"Kimin üzərində din qardaşının namus, heysiyyət və ya malıyla əlaqəli bir zülm varsa, (yəni bir qul haqqına giribsə), qızıl və gümüşün olmadığı qiyamət günü gəlmədən əvvəl o insanla halallaşsın! Əks təqdirdə, etdiyi haqsızlıq ölçüsündə onun yaxşı əməllərindən alınıb haqq sahibinə*

***Bir gün bu fani həyat sona çatacaq, həqiqi həyat dediyimiz axirət həyatı başlayacaq və hər kəs dünyadakı həyatından, yaşantısından, əməllərindən hesaba çəkiləcəkdir. Ağıllı və bəsirətli insan Allaha və Onun qullarına qarşı vəzifələrini yerinə yetirən, haqq və hüquqa sayğı göstərib hesab gününə borcsuz və günahsız olaraq getməyə çalışandır.***

*verilər. Əgər yaxşılığı (savabı) yoxdursa, haqq sahibinin günahından alınıb haqsızlıq edən kimsəyə yüklənər."* (Buxari)

Başqa bir hədisi-şərifdə isə Peyğəmbərimiz səhabələrinə: *"Müflis kimdir, bilirsinizmi?"* -deyə soruşur. Onlar da: "Bizə görə müflis pulu və malı olmayan kimsədir" -şəklində cavab verirlər. Rəsulullah (s.ə.s) isə belə buyurur: *"Şübhəsiz ümmətimin müflisi bu kimsədir ki, qiyamət günü namaz, oruc və zakat savabı ilə gələr. Lakin ona söydüyü, buna iftira atdığı, onun malını yediyi, bunun qanını tökdüyü, onu döydüyü üçün yaxşılıqlarının savabı ona-buna verilər. Üzərindəki qul haqları qurtarmadan savabları qurtararsa, bu dəfə haqq sahiblərinin günahları o kimsəyə yüklənər və nəticədə (həmin kəs) cəhənnəmə atılar."* (Müslim, Tirmizi, Əhməd).

Qul haqqı yemək haram olduğu üçün insanın mənəviyyatı üzərində mənfi təsir göstərər. İnsanların xalis və saleh əməllər işləməyə müvəffəq ola bilməmələrinin əsas səbəbi, harama, şübhəli şeylərə və qul haqqına kifayət qədər diqqət etməmələridir. İbadətlərdə xüşu halında ola bilmək Allahın əmrlərini sevərək, şövqlə yerinə gətirə bilmək ancaq qul haqqına diqqət, qul haqqından qorunaraq həssas bir təqva həyatı yaşamaqla mümkündür.

Qul haqqı tapdamağın ən dəhşətli şəkillərindən biri faiz alıb-verməkdir. Başqa biri də tərəzidə aldatmaqdır. Bunlara əlavə olaraq, birinin malını oğrulamaq və ya icazəsiz olaraq almaq, şərəf və heysiyyətini ləkələmək (təhqir etmək); insanları zarafatla da olsa incitmək və ya qorxutmaq; aldatmaq; rüşvət alıb-vermək; borucunu gecikdirmək və ya ödəməmək, hər hansı bir müsəlman qardaşının qəlbini qırmaq, kobudluq etmək kimi xüsusların hamısı da qul haqqına girməkdir.

Qul haqqı və halallaşmaq o qədər əhəmiyyətlidir ki, Rəsulullah bir peyğəmbər olmasına baxmayaraq, hər cür haqqa diqqət etməsinə baxmayaraq, bütün əshabının qarşısınında onlarla halallaşmaq istəmişdi.

Bir gün bu fani həyat sona çatacaq, həqiqi həyat dediyimiz axirət həyatı başlayacaq və hər kəs dünyadakı həyatından, yaşantısından, əməllərindən hesaba çəkiləcəkdir. Ağıllı və bəsirətli insan Allaha və Onun qullarına qarşı vəzifələrini yerinə yetirən, haqq və hüquqa sayğı göstərib hesab gününə borcsuz və günahsız olaraq getməyə çalışandır. Bu həqiqət heç vaxt unudulmamalıdır. Kim yaxşılıq və pislik olaraq nə edibsə, mütləq qarşılığını görəcəkdir. Allah-Təala Qurani-Kərimdə buyurur: **"Kim zərrə qədər xeyir işləyibsə onu görər. Kim də zərrə qədər pislik edibsə onu görər."** (əz-Zilzal 7-8)

Xülasə, bir müsəlman hesab gününü düşünərək yaşamalı və heç kimin haqqına təcavüz etməməlidir. Bu mövzuda da Peyğəmbərimiz (s.ə.s) buyurur: *"(Əsl) Müsəlman, dilindən və əlindən müsəlmanların zərər görmədiyi kimsədir.."* (Buxari).

Dr. Mehman İSMAYILOV

# ƏMANƏT VƏ QİYAMƏT

Quranı və ya Hz. Peyğəmbərin hədislərini oxumaq, əzbərləmək çox gözəl və lazımlıdır. Lakin onları oxuyarkən anlamaq, düşünmək və ən azından onları başa düşməyə çalışmaq daha da lazımlıdır. Misirli alim Məhəmməd Qəzali "Qurana Münasibətimiz Necə Olmalıdır?" adlı kitabında belə deyir: "... Adi insanın eşitdiyi və söylədiyi "oxudum" sözü o deməkdir ki, həmin insan ona gələn məktubu və ya əlinə düşən kitabı oxuyub başa düşüb. Bu mənada "oxudum" "başa düşdüm" deməkdir... Məna baxımından fəhm və oxu, dinləmə və qavrama arasında dərin fərq yoxdur. Müsəlmanlar, heç bilmirəm, hansı səbəbdən oxumaq və düşünmək arasında fərq qoyublar. Günümüzün müsəlmanları Quranı, bir deyim var, təbərrük üçün oxuyurlar. Nə mənasını anlayır, nə də məğzini qavrayırlar".

Qurandan və ya hədislərdən bəhs edərkən daha çox zina, içki, qumar və s. kimi eyni məsələlər üzərində durulur. Quranda elə ayələr vardır ki, onlar barədə bir az dərindən düşündükdə insan, Quranın bizə sadəcə yuxarıdakı məsələlərlə əlaqədar deyil, eyni zamanda başqa bir çox məsələlərlə bağlı mesajları olduğunu görər. Əlbəttə yuxarıda qeyd etdiyimz zina, içki, qumar və s. kimi məsələlərdə Quranın baxışını əsas almaq son dərəcə əhəmiyyət kəsb edir. Lakin, Quranın bunlar qədər, hətta bunlardan daha çox vurğuladığı yalan danışmama, hər şeyə məsuliyyətlə yanaşma (təqva), dürüst olma, səmimiyyət (ixlas), saleh əməl, əhdə vəfa, təkəbbürdən uzaq durma, başqalarının fikirlərinə hörmətlə yanaşma (şura), aldatmama, cəhalət, sosial ədalət, elmə və alimə hörmət və s. kimi məsələlərə heç əhəmiyyət vermirik.

Halbuki möminin "onurğa sütununu" bunlar təşkil edir.

Belə ayələrdən biri də, çox vaxt oxuyub savab almağa çalışdığımız, lakin verdiyi mesajı diqqətə almadığımız və həyatımızda tətbiq etmədiyimiz bir ayə olan Nisa surəsinin 58-ci ayəsidir. Bu ayədə Allah-Təala belə buyurur:

**"Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Həqiqətən, Allahın bununla (belə bir tapşırıqla) sizə verdiyi öyüd necə də gözəldir! Əlbəttə, Allah (hər şeyi) eşidəndir, görəndir!"** (ən-Nisa 58)

Bu ayəni Hz. Peyğəmbərin hədisindən daha yaxşı izah edən başqa bir izah tərzi tapmaq çətindir. Bu hədis belədir: "Əbu Hüreyrədən (r.ə.) nəql olunan bir rəvayətdə Hz. Peyğəmbər belə buyurur: "Əmanət layiq olmayana verildiyi vaxt qiyaməti gözlə" (Buxari, Elm 2).

Bu hədisin səbəbi-vürudu belədir: "Bir dəfə Rəsulullah (s.ə.s.) ətrafındakı səhabələrlə danışarkən, bir bədəvi gəlir və: Qiyamət nə vaxt qopacaq? –deyə soruşur. Rəsulullah (s.ə.s.) sözünü kəsmədən danışmağa davam edir. Orada olanaların bəziləri "bədəvinin (dediklərini) eşitdi, ancaq (onun) sualı xoşuna gəlmədi", bəziləri də "deyəsən eşitmədi" deyə düşünməyə başlayırlar. Rəsulullah (s.ə.s.) sözlərini qurtardıqdan sonra: "Qıyamət (barədə) sual verən hanı?" -deyə soruşur. Bədəvi: Mənəm, burdayam ey Rəsulullah! - deyir. Hz. Peyğəmbər: "Əmanət məhv edildikdə qiyaməti gözlə!"-buyurur. Bədəvi: "Əmanət necə məhv edilir?-deyə sual verdikdə isə, Rəsulullah (s.ə.s.) belə cavab verir: İş layiq olmayana verildiyi vaxt qiyaməti gözlə". (Buxari, Elm 2)

Müfəssirlərdən biri bu ayə barədə belə deyir: "Əmanət bir işin və ya bir şeyin məsuliyyətinin müvəqqəti olaraq bir adama verilməsi deməkdir".

Bir adama əmanətin verilməsi üçün 4 şərt vardır:

1. Allah qarşısında məsuliyyətli olmaq.
2. Qabiliyyətli olmaq.
3. Qanunilik.
4. İnsanlara faydası toxunmaq.

Əmanəti əhlinə verməməyin isə üç qat zülm olduğu bildirirlir:

1. Əmanətin özünə.
2. Əmanətin verildiyi əmanətə layiq olmayan adama.
3. Əmanətin verilməsi lazım olduğu halda verilməyən şəxsə.

Əmanətin Allah-insan münasibətləri və insan-insan münasibətləri ilə əlaqəli yönləri vardır. İnsan etdiyi hər bir günahı Allahın ona əmanət etdiyi imkan, orqanlar və gücü ilə işləyər. Buna görə də hər bir günah ilahi əmanətə xəyanət mənasına gəlir.

Yuxarıda yazılanlardan belə nəticə çıxara bilərik ki, hansı şəkildə olursa olsun, əmanətə layiq olmaq üçün, məsuliyyətli, qabiliyyətli olmalı və başqalarına faydamız toxunmalıdır. Əks təqdirdə əmanətə xəyanət etmiş olarıq ki, bu da Quran tərəfindən günah sayılmışdır.

***"Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Həqiqətən, Allahın bununla (belə bir tapşırıqla) sizə verdiyi öyüd necə də gözəldir! Əlbəttə, Allah (hər şeyi) eşidəndir, görəndir!"*** *(ən-Nisa 58)*

# El ağsaqqalı SƏMƏD BABA: Qoy gənclərimiz dinə, vətənə, millətə və bayrağına sadiq olsunlar!



*Əziz Oxucu! Jurnalımızın yeni rubrikasında ilk həmsöhbətimiz Qəbələ rayonunda yaşayan ağsaqqalımız Səməd Ağalarovdur. Hamı onu Səməd Baba kimi tanıyır. Elə biz də bu cür təqdim edirik. Heç bir dini və dünyəvi təhsilinin olmadığını dəfələrlə dilə gətirərək təvazökarlıq sərgiləsə də, onun müdrik fikirlərinə, dünya görüşünə hamımızın ehtiyacı var.*

**İrfan jurnalı:** *Səməd Baba, ilk növbədə özünüz haqda məlumat verin, zəhmət olmasa!*

**Səməd Baba:** 1930-cu ildə Qurban bayramı gecəsi dünyaya gəlmişəm. Hətta buna görə adımı Qurban da qoymaq istəyiblər. Amma xalam çox təkid edib ki, adımı Abdussəməd qoysunlar. O zamanlar Sovet dövrü olduğu üçün rəsmi sənədlərdə Səməd olaraq yazıldı. İndi isə Anadoludan gələn türk qardaşlarımız elə Abdussəməd deyirlər. Uzun müddət qoyun çobanı olmuşam. Bircə gün də olsun parta arxasında oturmamışam. Nə pioner olmuşam, nə də komsomol. Amma qoyun otarmağa gedərkən oxumaq üçün çantamda kitab apardım. Oturub-durduğumuz məclisdə, ailəmizdə böyük söhbət etməzdisə, kiçiklər ağzını açmazdı. Süfrəyə çay və ya çörək gələndə böyüklər bismillah etmədən kiçiklər əllərini də vurmazdılar süfərdəki nemətlərə. Biz bu tərbiyə ilə böyümüşük. Süfrə salınmadan

ləyən gətirib əllərimizi yuyardıq. Dua etmədən süfrəni yığışdırmazdılar. Şor da yesək, plov da yesək mütləq dua edilərdi. Ona görə də bərəkət vardı, mehribançılıq vardı ailələrdə. O vaxt biz bunları kitabdan, jurnaldan oxumurduq. Bütün bu kimi davranışları ağızdan eşidərdik, böyüklərin nəsihətlərindən öyrənərdik. Onlar öz yaşayışları ilə bizə nümunə olardılar.

**İrfan jurnalı:** *Səməd baba, o dövrdə dini yaşamaq çox çətin olub. Dindarları, ziyalıları təqib edirdilər. Bəs camaat bu vəziyyətdə necə hərəkət edirdi?*

**Səməd Baba:** Əzizlərim, o dövrdə dini yaşamaq çox çətin idi. Xüsusilə Sovet hökumətinin ilk vaxtlarında dinə qarşı həddən artıq düşmənçilik vardı. Quran kitabı tapa bilmirdik. Hamısını yığışdırmışdılar. Məscid yox idi, namaz qılmağa çətinlik çəkirdik. Namaz qılandan şikayət edirdilər, nəticədə gəlib aparırdılar. Namazı, orucu xəlvəti yerinə yetirirdik. Bu torpaqlardan İslamın kökünü kəsmək istəyirdilər, amma Allahın vədi var, nurunu tamamlayacaq. Nə qədər amansızlıqlar olsa da insanların qəlbindəki Allah sevgisini, İslam inancını söküb ala bilmədilər. Hələ kiçik yaşlarımızda rəhmətlik anam bizə bərk-bərk tənbeh edirdi: "Oğlum, İslamınızı, iman və ehsanınızı qoruyun." Bu üç xüsusda hər zaman bizə tövsiyə edərdi. Hətta gecələr təhəccüd namazına da qaldırardı. Bütün bu işləri gizlində görərdik. Babalarım oxumuş, savadlı adamlar olublar. Hacı Soltan Əfəndi Samur mahalının qazısı olub. Hacı Rəcəb Əfəndi 1925-30-cu illərdə Şəki qazısı olub. Sovet hökuməti babalarımızı sürgünə göndərib, təqib edib. Nə qədər alimlərimizi güllələyiblər. Aramızda ağsaqqallar vardı ki, heç nədən qorxmadan ətrafdakılara dini öyrədirdilər. Bu yerdə mərhum Əhməd babanın, Şövkət babanın adını çəkmək yerində olardı. Dəfələrlə Əhməd babanı uşaqlara dərs verdiyi üçün, camaatı maarifləndirdiyi üçün KQB tərəfindən aparıb sorğu-suala tutublar. Sonra biz yas mərasimlərində, toylarda, müxtəlif yığıncaqlarda fürsətdən istifadə edib Əhməd baba kimi ağsaqqallardan nə isə öyrənirdik. Sonralar hökumət bir az yumşalsa da, yenə məscidləri açmağa qoymurdular, maariflənmə zəif aparılırdı, maneələr yaradılırdı. Məsələn, bir neçə rayonun mərkəzi məscidi Göyçayda idi. Qəbələdən durub cümə namazına ora gedirdik. Nə qədər yolu piyada qət etməli olurduq. Eşitmişdik ki, Ramazan ayı ya 30 gün, ya da 29 gün olur. Amma əlimizdə heç bir dəqiq məlumat olmadığı üçün həmişə 30 gün tutmuşuq orucu. İndi rahatdır hər şey. Təqvimlər var, oxuyuruq, öyrənirik. Bu kimi məşəqqətlərə baxmayaraq qeyd edim ki, o vaxtlar sayımız az olsa da, mehribançılıq həddən artıq çox idi. Aramızda ağsaqqalımız nə deyirdisə, hamımız qanun kimi qəbul edirdik. İndi məscidlərimiz dolur, amma mehribançılıq əvvəlki qədər yoxdur. Yadıma gəlir, o vaxt Quran kitabı tapılmırdı. Quran üçün burdan durub Dağıstana getmişdim. Oxuya bilməsəm də oxumaq eşqi ilə getmişdim. Babalarımızın yaşadığı evdə qədim Qazan çapı Quran tapdım. Əlimə götürüb həsrətlə baxdım. Ürəyim gəlmədi istəməyə. Hələ "versəniz də götürmərəm, babalarımızın sizə yadigarıdır" –dedim. İndi isə Quran da var, mədrəsə də var, amma insanlarda dinə əvvəlki qədər maraq yoxdur. Məscidləri

*Bu torpaqlardan İslamın kökünü kəsmək istəyirdilər, amma Allahın vədi var, nurunu tamamlayacaq. Nə qədər qəddarlıqlar olsa da insanların qəlbindəki Allah sevgisini, İslam inancını söküb ala bilmədilər. Hələ kiçik yaşlarımızda rəhmətlik anam bizə bərk-bərk tənbeh edirdi: "Oğlum, İslamınızı, iman və ehsanınızı qoruyun."*

kinoklub, taxıl anbarı edirdilər. İndi isə şükürlər olsun, bu kimi əngəllər aradan qalxıb. Kim istəsə dinini rahatlıqla öyrənə bilir. Yadıma düşür, yeni müstəqillik qazandığımız illər idi. Azyaşlı uşaqları, gəncləri bu sahələrdə fəal görəndə ürəyimiz dağa dönürdü.

**İrfan juralı:** *Son olaraq bir baba kimi gənclərə nə tövsiyə edərdiniz?*

**Səməd Baba:** İlk növbədə gənclərə tövsiyəm budur ki, Allahı tanısınlar. Ailədə ata-analara, yaxınlarına, böyüklərə hörmət göstərsinlər. Vətənə, millətə, dövlətə sevgiləri olsun. Yaşadığımız dövlətə qarşı hörmət sərgiləməliyik. Sadiq və saleh olsunlar. Dinindən, peşəsindən asılı olmayaraq böyük-kiçik münasibətlərinə diqqət etsinlər. Namus və iffəti pak tutsunlar. Oğullarımıza nəsihətim odur ki, nikahları altında olan qadınlardan bütün xanımları öz ana-bacıları bilsinlər. Əgər bu gözlə baxmırıqsa, deməli imanımızda zəiflik var. Böyüklərimiz də kiçiklərə ədəblə-ərkanla nümunə olsunlar. Allah, Peyğəmbər və Quran yolundan ayrılmasınlar. Bu gün şübhəli qidalar həddən artıq çoxdur. Şübhəli qidaların insana nə kimi zərər verdiyini yaxşı bilirsiniz. Mən düşünürəm ki, bu gün insnaların arasında baş verən münaqişələr, bir-birini başa düşməmək halları, mehribançılığın pozulmasının əsas səbəblərindən biri məhz şübhəli ruzilərdir. Ticarətdə aldatma halları çoxalıb. Bu kimi mənfi hallar böyük-kiçik, ata-oğul, ana-bala arasındakı münasibətlərə təsir edir. İmanları zədələyir. Allah özü rəhm etsin.

Yeri gəlmişkən İrfan jurnalının əməkdaşlarından da bir xahişim var. Bəzən dini mərasimlərimizdə, yaslarda məclisi aparanların, ağsaqqallıq edənlərin qabağında külqabı, damaqlarında siqaret görürük. Tüstüdən içəri girmək olmur. Bu haqda zəhmət olmasa maarifləndirmə aparın. Yazılar yazın, qoy camaat oxusun ki, Quran olan məclisdə, dindən söhbət gedən yerdə bu kimi hərəkətlər etmək xoş qarşılanmır. Toy və yaslarda həddən artıq israfçılıq məsələsini də işıqlandırın, xahiş edirəm!

**İrfan jurnalı:** *Səməd baba səmimi söhbətiniz üçün təşəkkür edirik.*



## İNSAN YETİŞDİRMƏK

İnsan yetişdirməyin əhəmiyyəti o qədər böyükdür ki, bu xüsusda bütün bəhanələr qəbuledilməzdir. Bununla bağlı bir Allah dostunun başına gəlmiş hadisə çox ibrətlidir.

Şeyx Dərqavi nəql edir:

"Ustadım məni bir qəbiləyə göndərirdi. Dedim ki; "Getdiyim yerdə mənəvi söhbətlər edib hal-xətir tutacağım bir Allah bəndəsi yoxdur. Orada yalnız qalacağam..."

Ustadımın mənə verdiyi cavab belə oldu:

"Möhtac olduğun insanı özün dünyaya gətirəcəksən! (Özün axtarıb tapacaq, yetişdirəcəksən)"

Akif HÜSEYİNLİ

# Müdriklərdən öyüdlər

* Xəstələrə baş çək, çünki bu adət insanların ən xeyirlisi olan Peygəmbərimiz (s.ə.s)-in sünnəsidir.

* Xəstə yetimi sevindirən qapısı bağlanmış olan cənnəti açıq olaraq görər.

* Dininin saf və təmiz bir su kimi qalması üçün daima halal ruzi istə.

* Haram ardınca qaçanın qəlbi bədənin içində tamamiylə ölümə məhkum edilmişdir.

* Bilmiş ol ki, ədəb insanın bədənindəki ruh kimidir, əslində ədəb Allah adamlarının gözü və könül nurudur.

* Əgər şeytanın başını əzmək istəyirsənsə gözünü aç, gör ki, şeytanın qatili ədəbdir.

* İnsan oğlunda ədəb olmazsa o insan deyildir.

* İnsan ilə heyvan arasındakı fərq ədəb ilədir.

* Gözünü aç, başdan-başa Allah kəlamı olan Qurani Kərimə bax! Quranın bütün ayələri ədəb öyrədir.

* İman nədir? deyə ağlımdan sordum. Ağıl qəlbimin qulağına: "İman ədəbdən ibarətdir" -deyə pıçıldadı.

* Dünya gecəsini aydınladacaq işıqların ən parlağı ədəbdir.

* Allaha ədəbli olmaqda müvəffəq olmağımız üçün dua edək, çünki ədəbli olmayan Allahın lütfündən məhrum qalar.

* Ədəb bir tac imiş nuri-Xudadan; Gey o tacı əmin ol hər bəladan.

* Ağlını başına topla və ömrünü yaşadığın bu gündən ibarət bil.

* Ölüm yolda durub gözləyir, əfəndi isə gəzib kef eləmək sevdasındadır.

* Ölüm bizi bir-bir çəkib alır, onun heybətindən ağıllıların rəngi sapsarı olur.

* Ölüm onu xatırlamaqdan daha yaxındır.

* Bədəni bəsləyib şişirtməyə fikir vermə, çünki o nəticədə torpağa verilən qurbandır. Sən qəlbini bəsləməyə çalış çünki ucalara gedəcək və şərəflənəcək odur.

* Bu leşə yağlı-ballı şeyləri az ver, çünki bədənini bəsləyən nəfsin arzularına məhkum olub axırda rəzil olur.

* Dirilik istəyirsənsə, ölmədən əvvəl öl. Bu ölüm səni məzara aparan ölüm deyil, səni dəyişdirən, səni insanlığa, ilahi eşqə, nura aparan ölümdür.

İbrahim EROL
İ_erol61@hotmail.com

# DAHİ İSLAM MÜTƏFƏKKİRİ İBN XALDUN VƏ TƏHSİL DÜŞÜNCƏSİ

İslam düşüncə tarixində təhsil və pedaqoqika deyildikdə ağla gələn ilk adlardan biri də şübhəsiz ki, İbn Xaldundur. Əsl adı Məhəmməd b. Əbdürrəhman olan İbn Xaldun 1332-ci ildə Tunisdə doğulmuşdur. Dövründəki bütün elm tələbələri kimi əsas islami elmləri öyrənməklə yanaşı İslam filosoflarının əsərlərini də oxumuşdur. Daha da irəli gedərək Yunan və Roma filosofları haqda araşdırmalar aparmışdır. Özünü əslən tarixçi kimi görməsinə baxmayaraq Tunisdə bir müddət siyasi həyata atılmış, dövlətin müxtəlif rəsmi sahələrində çalışmışdır. Lakin İbn Xaldun siyasi arenadakı bütün çalışmalarını əslində özünün tarixi araşdırmaları üçün bir vasitə olaraq görmüşdür.

İbn Xaldun sonralar bir çox ölkələrə səyahət etmə fürsəti tapmış və gəzdiyi yerlərdəki kral və əmirlərlə tanış olmuşdur. Lakin bu ziyarətləri əsnasında davamlı olaraq xalqın arasında olmağa səy göstərmiş və bir sosioloq kimi onları araşdırmağa başlamışdır. Ölkələrin idarə olunması, xalqın adət-ənənələri ilə yaxından tanış olmuşdur. Qəbilə təəssübkeşliyinin dövlətlərin qurulmasına olan təsirlərini də tədqiq edən İbn Xaldun daha çətin işə girişərək gəzdiyi məmləkətlərdəki iqlim şərtlərinin orada yaşayan insanlar üzərindəki təsirlərini araşdıraraq nəticələr çıxarıb bəzi qənaətlərini ortaya qoymuşdur.

20 illik çalışmasının sonunda yenidən Tunisə qayıdaraq qeyd və müşahidələrini kitab halına gətirmək üçün işə başlamış və "Kitabul İbər"i (ibrətlər kitabı) qələmə almışdır. Lakin kitaba giriş yazmağın lüzumunu düşünərək "Giriş" mənasına gələn "Müqəddimə"sini qələmə almışdır. Tarixin qəribəliklərindəndir ki, İbn Xaldunun daha sonra kitabına giriş olsun deyə yazdığı "Müqəddimə"si əsas kitabı olan "Kitabul İbər"dən daha məşhur olmuş və hər dövrdə tərcümə edilərək kütlələr tərəfindən oxunmuşdur. Xüsusilə 19-cu

əsrdə müxtəlif Avropa dillərinə tərcümə edilərək demək olar ki, təhsil sahəsində üsul kitabı kimi pedaqoji sahədə istifadə edilmişdir.

İbn Xalduna görə təlim və təhsil insanın həyatındakı təbii bir prosesdir. İnsanı heyvandan fərqləndirən cəhətsə onun fikir sahibi olmasıdır. Hiss və hərəkət, yemək və içmək kimi mövzularda insanlarla heyvanlar müəyyən ölçülərdə bir-birinə bənzəməkdədirlər. Halbuki insanı fərqləndirən cəhət öz məişətini təmin etmək, digər insanlara kömək etmək, Allahın peyğəmbərləriylə göndərdiyi vəhyi idrak edib ictimai həyatında, həmçinin axirəti üçün özünü islah baxımından davamlı olaraq mülahizə yürütməsidir. Yəni düşünüb anlamasıdır.

Təhsil müəyyən və mütəşəkkil bir prosesdən sonra insandakı hərəkətlərin dəyişməsi, peşə və intellektual baxımdan davranışların fərqliləşməsidir. Bu gün belə istifadə etdiyimiz bu tərifi müasir mənada ilk dəfə ortaya qoyan İbn Xaldundur. Bu məzmunda şəhərdə yaşayanların kəndlərdə və ya köçəri olaraq yaşayanlara görə problemlərini daha rahat həll etmələri daha təhsilli olmalarından qaynaqlanmaqdadır. Oun fikrinə görə təhsil işi, yəni elmləri öyrətmək bir sənaye və sektordur. Sənayenin çox olduğu diyarların daha da abadlaşacağı şübhəsizdir. Bir diyarın abad olması özü ilə birlikdə rifah və zənginliyi gətirir. Bir yerdə rifah və zənginliyin çox olması da oranın keyfiyyətinin daha yüksək olduğu mənasına gəlir. Keyfiyyətin yüksək olması bu sənayenin çoxalması və elmlərin kamal nöqtəsinə çatmasından keçir. Bu səbəbdən də harada mədəniyyət yüksəlsə, orada elm və irfan da yüksələr. İbn Xaldun elm və mədəniyyət tarazlığını məhz belə izah edirdi.

İbn Xaldunun ibtidai təhsillə bağlı fikirləri müasir təhsil strategiyalarına da liderlik etməkdədir. Əzbərçiliyin təhsildə çox faydalı olmadığı, təhsildə müəyyən bir ardıcıllığın izlənilməsi lazım olduğu, iki məlumatın uşağa eyni anda verilməməsinin gərəyi və uşağa qarşı sərt davranmamaq kimi xüsuslar ilk dəfə İbn Xaldun tərəfindən mütəşəkkil şəkildə izah edilmişdir. Hətta təhsildə səyahət və müşahidələrin daha faydalı olacağını, eyni zamanda konkretdən mücərrədə, asandan kompleksə kimi metodlardan ilk dəfə bəhs edən də odur. "Hər kəs qabiliyyəti nəyədirsə, onu asan öyrənər" deyərək təhsildə qabiliyyət və istedada diqqət çəkmişdir.

*Təhsil müəyyən və mütəşəkkil bir prosesdən sonra insandakı hərəkətlərin dəyişməsi, peşə və intellektual baxımdan davranışların fərqliləşməsidir. Bu gün belə istifadə etdiyimiz bu tərifi müasir mənada ilk dəfə ortaya qoyan İbn Xaldundur.*

Təhsildə diqqətləri çəkən digər bəzi xüsusları da zikr etmişdir. Onun fikrinə görə tələbəyə duyğularına xitab edən nümunələr verilməlidir. Müəllim tələbəsiylə ən yüksək səviyyədə ünsiyyət qurmalıdır. Bir mövzu yaxşı öyrədilmədən digər mövzuya keçilməməlidir. Uşağa davamlı öyüd vermək yerinə, ona yaxşı nümunələr göstərilməlidir. Ata-ana və müəllimlər uşaqlara qadağan etdikləri şeyləri əvvəlcə özləri etməməlidirlər.

Hərtərəfli bir fikir adamı olan İbn Xaldunun xüsusilə uşağın şəxsiyyətinə müdaxilədən çox təhsil və adətlərin, ətraf mühitin istiqamət verəcəyini ifadə etməsi diqqətçəkicidir. O, bütün bu fikirlərini Müqəddimə adlı əsərində izah etmişdir. Həmçinin bu əsərdə İbn Xaldun dövlətlər və rəhbərlik formaları, ən ideal rəhbərlik şəkli, liderlər və zaman içərisindəki hərəkətləri, dövlətlərin və millətlərin tənəzzül səbəbləri üzərində dayanır. Bu böyük mütəfəkkirimiz 1406-cı ildə Misirin paytaxtı Qahirədə vəfat etmişdir.

Mübariz ƏLİOĞLU

# QORXU İLƏ ÜMİD ARASINDA

Uca Allah Qurani-Kərimdə belə buyurur:

"Biz (Zəkəriyyənin) duasını qəbul buyurduq. Ona Yəhyanı bəxş etdik və zövcəsini (doğmağa) qabil bir hala gətirdik. Onlar xeyirli işlər görməyə can atar, ümid və qorxu ilə (mərhəmətimizə ümid bəsləyib əzabımızdan qorxaraq) Bizə ibadət edirdilər. Onlar Bizə qarşı dərin bir sayğı içində idilər." (əl-Ənbiya, 90)

İnsanları və cinləri yalnız Özünə qulluq etsin deyə yaradan Uca Rəbbimizin onlar üzərindəki rəhmət və bərəkət təcəlliləri-ni idrak etmək və onlara layiq olduğu qiyməti vermək hər birimizin üzərinə düşən ən ümdə vəzifədir. Kainatın sərhədsiz düzəngahlarında seyr etdiyimiz möhtəşəm yaradılış nümunələrinin qüsursuz bir əqli qabiliyyətə malik olan Adəm övladlarının həyatında ilahi əmrlərə qarşı son dərəcə həssas bir bağlılığın meydana gəlməsinə səbəb olacağı şübhəsizdir. "Mən sizin Rəbbinizəm. Buna görə də yalnız Mənə ibadət edin!" (Əl-Ənbiya, 92) –buyuran Uca Allahın mərhəmətinə ümid bəsləyərək və əzabından da eyni ölçüdə qorxaraq Ona ən gözəl şəkildə ibadət etməyin fəzilətini Rəsulullahın mübarək həyat təcrübəsindən anlamaq mümkündür: "Rəsulullah ölmək üzrə olan bir dəliqanlının yanına girdi və soruşdu:

- Halın necədir? Hansı hisslər keçirirsən?

Dəliqanlı:

- Ey Allahın Rəsulu! Günahlarımdan qorxduğum halda Allahın Rəhmətinə də ümidim var –dedikdə Allahın Rəsulu (s.ə.s) belə buyurdu: "Belə bir durumda olan möminin qəlbində iki şey bir araya gəlirsə, Allah mütləq ona umduğunu verərək qorxduğundan da əmin edər." (Tirmizi)

Ümid və qorxunun bir-birini tamamlayan və insanın mənəvi tərəqqisi üçün son dərəcədə vacib olan hisslər olduğunu hədisin mətnindən də sezmək mümkündür. Gündəlik həyatımızda cərəyan edən bir çox hadisələrin axarında ümid və qorxunun iç-içə yaşandığı anlarda insan xarakterinin qələbəyə yaxın olduğunu müşahidə etmək olur.

Möhtəşəm gəzinti gəmisi olan " Kosta-Konkordiya"nın acı aqibəti yəqin ki, heç kimin yadından çıxmayıb. Sualtı qayalara ehtiyatsızlıq nəticəsində çırpılan gəminin gövdəsinə, açılan iri dəliklərdən daxil olan su kütləsi, bütün xilas tədbirlərinə baxmayaraq şiddətli qorxu keçirən insanların gözləri önündə gəmini yanı üstə qoyaraq onu istismara yararsız vəziyyətə gətirmişdi. Qeyd edək ki, bütün gəmilərdə baş verən qəza hadisələri eyni süjet xətti ilə inkişaf edərək gəminin sağa və ya sola əyilməsi və daxili gərginliyin maksimim həddə çataraq onu batırması ilə nəticələnir. Bu qəzaların iştirakçısı olan insanların yaşadığı qorxu hissini

sətirlərdə əks etdirmək həddən ziyadə çətin bir işdir. Gəmi qəzalarını analiz edən rus mütəxəssisi A.N Krılov qeyri-adi səslənəcək, lakin real şəraitdə gəmini, ən əsası insanları xilas edəcək ümidverici təkliflərlə çıxış etmişdir. Onun fikrincə əgər gəminin gövdəsində dəlik açılarsa və su böyük sürətlə gəmidaxili həcmlərə daxil olaraq onun sağa və ya sola əyilməsinə, sonda isə batmasına səbəb olursa onda gövdədə açılan qorxu dəliyini tarazlayacaq əks istiqamətdən ümid dəliyi açmaq lazımdır. Nəticədə sağdan və soldan və yaxud dəlik qabaqdandırsa, arxadan açılan dəliklə su kütləsi eyni axın sürəti ilə gövdə içi həcmləri bərabər səviyyədə dolduracaq ki, bu da son nəticədə gəminin batmasını önləyəcəkdir. Gövdənin ilk dəliyə nəzərən simmetrik doldurulması nəticəsində gəminin suya oturma həddi maksimuma çatsa da bu onun təmir üçün qoşqularla tərsanəyə daşınmasına hec bir əngəl törətmir. Krılovun təklifini anlamsız qarşılayan ordu rəhbərliyi sonda onunla razılaşmaq məcburiyyətində qaldı. 1904-cü ildə yapon qüvvələrinin rusların Port Arturda yerləşən esdakadasına hücumu nəticəsində əks doldurma taktikasından istifadə edən rus qüvvələrinin heç bir gəmisini sıradan çıxarmaq mümkün olmadı. Əziz oxucular! İlk dəliyi şiddətli qorxu, həmən açılan əks dəliyi isə həqiqi ümid olan gəmi əhvalatları, ümid və qorxunun tarazlandığı real şəraitdə insanları necə xilas etdiyini göstərir. Əgər "Kosta Konkordiya" gəmisində qorxu dəliyinin əmələ gətirdiyi dözülməz vəziyyəti həmən əks tərəfdən açılacaq ümid dəliyi ilə tarazlamaq mümkün olsaydı 450 milyon avroya başa gələn gəmini və ən əsası insanları ölümün pəncəsindən xilas etmək olardı. Əbu Bəkr Vərraq bu incəliyi necə də gözəl anladır: "Qorxu və ümid insanların qəlblərinə Allahdan gələn bir fərəhlik və rahatlıqdır. Əgər ümid olmasa, onların ağılları başlarından çıxar və həlak olardılar." Qorxu və ümidi insan mənliyində tarazlamaq həddən ziyadə çətin bir işdir. Musa əleyhissalamın həyat mücadiləsi qorxu və ümidin həqiqətinə işıq salan bir ibrət səhnəsidir: Fironun ordusu Musa əleyhissalamın və onunla birgə hərəkət edənlərin ardına düşərək onlara yetişməyə çalışırdı. Təbiidir ki, Firon çox böyük ümidlə özünün qalib olacağını zənn edirdi. Fironun ordusu ilə Musa əleyhissalamın adamları bir-birini gördükdə yəhudilər şiddətli qorxu hissinə yaxalandılar. Lakin həm Firondan, həm də yəhudi xalqından fərqli olaraq tam ümid və tam bir qorxu hissinin tarazlandığı mübarək qəlbi ilə Rəbbinə yönələn Musa əleyhissalam qələbənin yalnız və yalnız Haqqa yönələnlərdə olduğunu bəşəri təfəkkürə əminliklə yerləşdirdi: "(Musa) dedi: "Xeyr, Rəbbim mənimlədir. O, mütləq mənə yol göstərəcəkdir". (əş-Şüəra, 62). Bu yönəlmənin nəticəsi olaraq: "Onda Musaya belə vəhy etdik: Əsanla dənizə vur (Musa əsasını dənizə vuran kimi) o dərhal yarıldı. Musa və onunla birlikdə olanların hamısını xilas etdik. O birilərini isə (Firon tayfası) suya qərq etdik." (əş-Şüəra, 63-65)

Hz. Peyğəmbər bir hədisində belə buyurur:

"Cəhənnəm kimi (başqa bir ağır əzab yurdunu) görmədim. Lakin buna baxmayaraq ondan qaçan yatmaqdadır. Cənnət kimi də (başqa bir möhtəşəm mükafat yurdunu) görmədim. Lakin onu axtaran da yatmaqdadır."(Tirmizi, 2601) Hədisin bəyanı bizə aşağıdakıları açıqlayır: Gerçək ümid və gerçək qorxu hissinin dünyəvi cazibəyə aldanaraq tərk edilməsi möminlərə yaraşan bir əxlaq deyil. Dünyadan keçən əbədi həyat yolumuzun hər bir anında Rəbbimizə yönəlməmiz hamımız üçün hava və su kimi gərəkli olan bir istəyə çevrilməlidir.

Osman Nuri TOPBAŞ
www.osmannuritopbas.com

# Haqqa dostluq üfüqündə

# İMAN HƏSSASİYYƏTİ

Möminlərin İslamı idrak edib həyatlarına tətbiq etmək xüsusunda həssaslıqları eynilə imanları kimi dərəcə-dərəcədir. Avamdan xavassa doğru fərqlilik ərz edər. Kimisi zərgər tərəzisi qədər həssas, kimisi də odunçu qapanı qədər hissiz və qabadır. Zərgər tərəzisi qiymətinə görə milliqramı da diqqətə alır, bir az güclü üfürmək belə ona təsir edər. Ona görə də zərgərlər ölçdüklərini külək tutmayan, qapalı yerlərdə ölçərlər. Odunçu qapanında isə milliqram bir tərəfə bir neçə kiloqramlıq artıq-əskik belə heç bir dəyər ifadə etməz. Çünki odunun qiyməti qızılla müqayisə edilməyəcək nisbətdədir.

İlahi əmr və qadağalara riayət məsələsindəki həssaslıq da bəndənin Allah və Rəsuluna yaxınlığı nisbətində artar, uzaqlığı nisbətində azalar. Bu səbəblə kimisi həyatında dinin mənafeyini aşağı tutaraq fətva və rüxsətlərlə əməl etdiyi halda, kimisi də təqva və əzimətlərlə əməl edərək kamil bir itaət səyi içində həyatını Quran və Sünnəyə ram edər. Təbii ki, insanın Allah qatındakı mərtəbəsi də bu təqva dərəcəsinə görə müəyyənləşər.

### Fətva, yoxsa Təqva?

Bir dəfə paltarındakı həddən artıq kiçik kiri təmizləməyə çalışan İmam Əzəm Əbu Hənifə həzrətlərini görənlər ondan soruşurlar:

"- Ya İmam! Verdiyiniz fətvaya görə bu kiçik ləkə namaza mane deyil; bəs nə üçün bu qədər zəhmət çəkib onu təmizləməyə çalışırsınız?"

İmam Əzəm həzrətləri buyurur:

"- O fətvadır, bu isə təqva!.."

Yəni Allah-Təalanın sevimli qulları öz qulluq həyatlarını həssas və dəqiq ölçülərlə yaşayarlar. Haqqa yaxınlıq qazana bilməmiş qafillər isə ilahi həqiqətlər qarşısında öz hallarını həmişə qaba ölçülərlə

qiymətləndirər, vəziyyətlərini cəmiyyətin dayaz səviyyəsiylə müqayisə edərək kiçik əməllərini böyük görər, əbədi qurtuluşları barəsində bununla təsəlli taparlar. Allahın daima əfv və mərhəmətini ifadə edən "Rəhman, Rəhim, Səttar, Ğaffar" kimi sifətlərini düşünər, Onun eyni zamanda cəlal və qəzəbini də ifadə edən "Muntəqim, Qahhar" kimi sifətlərini gözardı edərlər. Məhz bu da son dərəcə həssas gerçəkləri heç də həssas olmayan odunçu tərəzisində çəkmək qəflətindən fərqsizdir. Ona görə də saleh möminlər öz hallarını hər xüsusda və daima ilahi ölçülərlə ölçüb-biçərlər. Onların meyarı cəmiyyət deyil, Peyğəmbər ﷺ, əshabi-kiram və Allah dostlarıdır. Allahın bu sevimli bəndələri kimi onlar da ibadət, müamələt və əxlaq xüsusunda böyük səy və fədakarlıqlar göstərmələrinə baxmayaraq, bu səylərini bir "heç" kimi görər, son nəfəs əndişəsiylə qəlbləri titrəyər, daim ilahi rəhmət və məğfirəti ümid edərlər. Yəni kamil möminlər öz hallarını bir növ zərgər tərəzisi həssaslığıyla ölçərlər. Çünki zərgər tərəzisində milliqramların belə dəyəri çox böyükdür.

### Zərrələrin Böyük Hesabı

Ayeyi-kərimədə buyurulur:

**"Kim zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir. Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir."** (əz-Zilzal, 7-8)

Deməli, ilahi tərəzidə zərrələr də ölçüləcək. Zərrə isə zərgərin həssas tərəzisiylə ölçülər, odunçu tərəzisiylə deyil.

Bəzən tərəzinin bir tərəfini digər tərəfindən ağır edən kiçik bir zərrə olur. Buna görə heç bir savab da, heç bir günah da kiçik və ya əhəmiyyətsiz görülməməlidir. Necə ki, Allahın rəhməti də, qəzəbi də bəzən böyük, bəzən orta, bəzən də kiçik kimi görünən bir əməldə təcəlli edər. Tabiundan **Bilal bin Sad**ın bu xəbərdarlığı necə də mənalıdır:

*"Günahın kiçikliyinə baxma! Kimə üsyan etdiyinə, kimə qarşı günah işlədiyinə bax!"*

Qəlbi Allah qorxusu və məhəbbətiylə diri olan bir möminin nəzərində ən kiçik günahlar belə, alovlanıb yanan bir köz parçasından fərqsizdir. Bu səbəblə saleh bəndələr günaha dalmaq bir tərəfə, günah işlənən yerlərdən keçməyi belə istəməzlər. Çünki o məkanların ağırlığı onlara daxili sıxıntı verər. Bunun əksinə,

*İlahi əmr və qadağalara riayət məsələsindəki həssaslıq da bəndənin Allah və Rəsuluna yaxınlığı nisbətində artar, uzaqlığı nisbətində azalar. Bu səbəblə kimisi həyatında dinin mənafeyini aşağı tutaraq fətva və rüxsətlərlə əməl etdiyi halda kimisi də təqva və əzimətlərlə əməl edərək kamil bir itaət səyi içində həyatını Quran və Sünnəyə ram edər.*

Haqdan uzaq, qafil bir insan isə ən ağır cinayətləri işləsə belə, qəlbində ən yüngül bir ağrı hiss etməzlər. Hətta günahlar ona şirin musiqi kimi xoş gələr. Çünki onun könül dünyası bütün həssaslığını itirmiş, günahların iztirabıyla fəryad etməli olan hissiyyatı parça-parça olmuşdur.

**Abdullah bin Məsud** ﷺ təqva sahibi olan bir möminlə qafil kimsənin günahlara baxışlarındakı həssaslıq fərqini belə dilə gətirmişdir:

"Mömin öz günahını altında oturduğu və sanki hər an üzərinə düşmə təhlükəsi olan bir dağ kimi görər. Bu böyük dağın üstünə düşməsindən qorxar. Günahkar isə günahını burnunun üstündən keçən bir ağcaqanad kimi görər." (Buxari, Dəavat, 4; Müslim, Tövbə, 3)



***Bəzən tərəzinin bir tərəfini digər tərəfindən ağır edən kiçik bir zərrə olur. Buna görə heç bir savab da, heç bir günah da kiçik və ya əhəmiyyətsiz görülməməlidir. Necə ki, Allahın rəhməti də, qəzəbi də bəzən böyük, bəzən orta, bəzən də kiçik kimi görünən bir əməldə təcəlli edər.***

Kamil möminlərin günahlardan çəkinmək xüsusundakı həssaslığı savab qazanmaq cəhdində də özünü göstərər. Çünki onlar qiyamət günü insanın ən kiçik bir xeyrə belə möhtac olacağı şüuruyla səylərini hər an daha da artırmağa çalışarlar. Ən kiçik əməllərin belə qiyamətdə nə qədər böyük bir qiymət qazanacağını **Rəsuli-Əkrəm** ﷺ belə xəbər vermişdir:

*"Qiyamət günü insanlar səf-səf düzülərlər. Bu zaman cəhənnəm əhlindən bir nəfər cənnət əhlindən birinə rast gələr və:*

*"- Ey filankəs! Xatırladınmı, sən su istəmişdin, mən sənə bir içimlik su vermişdim?" -deyər. Mömin də o ona şəfaət edər.*

*(Cəhənnəmlik olan başqa bir) adam cənnətlik olan birinin yanına çatar və ona:*

*"- Xatırlayırsanmı, sənə bir gün dəstəmaz suyu vermişdim?" -deyə (şəfaət istəyər. O da xatırlayar) və ona şəfaət edər.*

*Yenə cəhənnəmlik olanlardan biri cənnətlik birinə:*

*"- Ey filankəs! Məni filan bir işə göndərdiyin günü xatırlayırsanmı? Mən də o gün sənin üçün getmişdim." -deyər. Cənnətlik olan adam da ona şəfaət edər." (İbn Macə, Ədəb, 8)*

Təbii ki, möminlərin bu şəfaəti Haqq-Təalanın iradə və icazəsinə bağlıdır. O istəyərsə bağışlayar, istəməzsə bağışlamaz.

Bu səbəbdən axirət həyatında hansı əməlin qurtuluş vəsiləsi olacağı bilinmir. Bu səbəblə böyük-kiçik demədən bütün saleh əməllərə can atmalı, zamanı ən məhsuldar şəkildə qiymətləndirməli və dünyada ikən Allah üçün yorulmağı ən böyük zövq, ləzzət və nemət bilməliyik.

### Haqqa Yaxınlıq İqliminin İncə Ədəbləri

Allah-Təalanın sevib razı olduğu bəndələr:

- Ən kiçik bir savaba da, günaha da böyük diqqət göstərərək yaşayan müttəqilərdir.

- Allah və Rəsulunda fani ola bilmək cəhdi ilə öz həyatlarında Quran və Sünnə yolundan zərrə qədər əyilməmək üçün, böyük diqqət göstərən sadiqlərdir.

- "*İnsan sevdiyi ilə bərabərdir.*" (Buxari, Ədəb, 96) hədisi-şərifinin möhtəvasına girə bilmək üçün Allah Rəsulu ﷺ ilə hissi, fikri və feli bərabərlik içində olmağa həddən artıq səy göstərən salehlərdir.

- Eynilə qar üzərində gedən bir adamın izini təqib edirmiş kimi Allah Rəsuluna tamamilə itaət cəhdi ilə yaşayan möminlərdir.

Necə ki, təqva əhlindən olan hədis alimi və müctəhid **İmam Nəvəvi həzrətləri** Rəsulullah ﷺ-in qarpızı necə yediyinə hədislərdə rast gəlmədiyi üçün damağında bu meyvənin ləzzəti itmiş və ömrü boyunca qarpız yeməmişdir. Həyatının bütün mərhələlərini əhatə edən, Peyğəmbərə tam bağlılıq səyi ilə qarpız yeyərkən belə Onun tərzi xaricində hərəkət etmək ehtimalından uzaq durmağı üstün tutmuşdur.

Yenə Peyğəmbər aşiqlərindən **Seyid Əhməd Yəsəvi həzrətləri** 63 yaşında vəfat edən Rəsulullaha bəslədiyi məhəbbət və bağlılıq səbəbiylə ömrünün bu yaşından sonra yer üzündə gəzməklə vidalaşmış, vəfat edənə qədər on il yerin altında məzar kimi qazdırdığı xüsusi bir yerdə irşad həyatına davam etmişdir.

Haqq dostlarından **İmam Rəbbani həzrətləri** də belə buyurmuşdur:

"Bir dəfə qəflətə düşüb unudaraq ayaqyoluna girərkən əvvəlcə sağ ayağımı atdım. (Sünnəyə uyğun gəlməyən bu davranışım səbəbiylə) o gün bütün mənəvi hallardan məhrum qaldım."

Yenə İmam Rəbbani həzrətləri bir gün tələbələrindən birinə:

"- Bizim kisədən bir miqdar mixək gətir!" buyurmuşdu. O da gedib altı dənə

mixək gətirmişdi. İmam Rəbbani həzrətləri bunu görüb qəmli bir əda ilə belə buyurdu:

"- Bizim tələbələr hələ Peyğəmbərimizin hədisində bildirilən: *"Allah təkdir, təki sevər!"*[1] qaydasına diqqət etmirlər. halbuki buna diqqət etmək müstəhəbdir. İnsanlar müstəhəbi nə zənn edirlər?! Allahın xoşuna gələn belə bir əməlin qarşılığında bütün dünya və axirət verilsə, qiymətsiz qalar."[2]

Görüldüyü kimi Allaha belə bir yaxınlıq iqlimində fərz, vacib və sünnələrdən savayı müstəhəblərin belə qiyməti bu qədər böyükdür. Haramlar və məkruhlar bir yana, şübhəlilərdən çəkinmək belə son dərəcə lazımlıdır. Çünki o məhəbbət və mərifət iqlimi ən xırda bir kiri qaldıra bilməyəcək saflıq və lətafətdədir. Ən kiçicik laqeydliyin böyük məhrumiyyətlə qarşılıq görəcəyi müstəsna bir aləmdir.

Bu səbəblə Allah dostları Haqqa yaxınlıq iqliminə girə bilmək üçün çox in-

*Zirvələr qasırğasız olmadığı kimi, Haqqa yaxınlıq zirvələrinin də çox çətin imtahanları var. Bu səbəbdən mənəvi zirvələrdə olanlar, aşağıda olanlar qədər rahat və sərbəst hərəkət edə bilməzlər.*

cə nəzakət ələklərindən və ağır iztirab yollarından keçirilmişlər. Zirvələr qasırğasız olmadığı kimi, Haqqa yaxınlıq zirvələrinin də çox çətin imtahanları var. Bu səbəbdən mənəvi zirvələrdə olanlar, aşağıda olanlar qədər rahat və sərbəst hərəkət edə bilməzlər. Onlar hal və rəftarlarına daha çox diqqət etmək məcburiyyətindədirlər. Çünki zirvədə atılacaq səhv bir addım həyati əhəmiyyət daşıyır. Sadə insanlar etdiyi təqdirdə üzrlü sayılacaq bir çox səhv o yüksək ruhlar üçün böyük bir məhrumiyyət səbəbidir. Ona görə də avam təbəqəsinin işlədiyi əməllər o xas qullara yaraşmaz, Haqqa dostluğun yüksək hüququyla üst-üstə düşməz. Ümumi xalq üçün caiz olan bir çox şey onlar üçün böyük bir istiğfar səbəbidir.

Bu hadisə sözügedən həqiqəti nə gözəl izah edir:

Osmanlının son dövr mütəsəvvüflərindən Şeyx Məhəmməd Nurul-Ərəbinin "bəşəri / cüzi iradə"ni inkar etdiyinə dair dedi-qodu yayılır. Bunu eşidən Sultan Əbdülməcid Xan, Şeyx həzrətlərinin hüzuruna çağırılaraq bu haqda sorğu-sual olunmasını istəyir. Şeyx Əfəndi hüzura dəvət edilib məsələnin əsli haqda sorğu-suala tutulduqda bu cavabı verir:

"Əlbəttə ki, qulun cüzi iradəsi var. Lakin hər kəsdə və hər vaxt deyil. Məsələn, əlbəttə ki, mən cüzi iradə sahibiyəm. Lakin bura padşahın əmriylə gəldim. Buradan qalxıb getmək isə əlimdə deyil. "Gəl" deyilər gəlirik, "get" deyilər gedirik. Demək ki, burada iradəm -müəyyən bir xüsusda- yox hökmündədir. Eyni şəkildə padşahın hüzurunda olduğum üçün edə biləcəyim hərəkətlər də məhduddur. Haqq dostları da eynilə bu misalda olduğu kimi daima Rəblərinin hüzurunda olduqlarının idrakı içində yaşayarlar. Allah hər yerdə hazır və nazır olduğu halda bir çox kimsə özünü yalnız namazda ilahi hüzurda bilərlər. Halbuki müəyyən bir mənəvi mərtəbəyə yüksəlmiş olanlar hər an hüzuri-ilahidə olduqları idrakı ilə yaşayarlar. Belə kimsələrdə cüzi iradənin var sayılıb-sayılmayacağını özünüz deyin."

Necə ki, ayeyi-kərimədə: **"…Siz harada olsanız, O sizinlədir…"** (əl-Hədid, 4) buyurulmuşdur.

Gördüyümüz kimi Haqqa yaxınlıq iqliminin ölçüləri də, imtahanları da, mükafatı da, cəzası da tamam fərqlidir.

### Səbri-Cəmil İmtahanı

**Həzrət Yaqub** عليه السلام Allaha ən yaxın qullardan olan peyğəmbərlərdən biridir. Bu əziz peyğəmbər öz xüsusiyyətlərini övladları içində ən çox Yusif عليه السلام da gördüyü üçün könlü ona meyil etmiş, böyük bir məhəbbətlə ona bağlanmışdı. Lakin həddi aşan bu məhəbbət Haqqa yaxınlığa kölgə saldığı üçün uzun bir ayrılıq acısıyla

qarşılıq gördü. Halbuki hər ata övladına məhəbbət duyar. Hətta bəzi ataların övladına olan məhəbbəti düşkünlük dərəcəsindədir. Lakin bunların bir çoxu Yaqub ﷺ-ın məruz qaldığı övlad həsrəti imtahanına tabe tutulmaz. Çünki Həzrət Yaqub Allahın peyğəmbəri və dostudur. Bu dostluğun yüksək hüququna zidd olan, ümumi insanlıq üçünsə qanuni olan bir hal o əziz peyğəmbər üçün böyük bir ilahi imtahana çevrildi. Yaqub ﷺ da ardarda gələn bütün müsibətlər qarşısında Allaha yaxınlığa yaraşan səbir, təslimiyyət və riza halıyla: **"...Mənim edəcəyim şey yalnız səbri-cəmildir / gözəl bir səbirdir..."**[3] -dedi.

## Dostluq İmtahanı

Həzrət İbrahim ﷺ-ın qəlbində Allahdan başqa heç nəyə yer yox idi. Buna görə də Haqq-Təala onu özünə "Xəlil", yəni "dost" seçmişdi. Bunun üzərinə mələklər:

"- Ey Rəbbimiz! İbrahim Sənə necə dost ola bilər? Nəfsi, malı və övladı var. Qəlbi bunlara meyillidir..." -dedilər.

Allah-Təala da İbrahim ﷺ-ı bu üç xüsusda ağır sınaqlara çəkdi. İbrahim ﷺ isə bu imtahanları ilahi lütflə qazanaraq Allahın Xəlili ünvanına layiq olduğunu sübut etdi. Tövhid mübarizəsi uğrunda gözünü qırpmadan zalım Nəmrudun atəşinə atıldı. Beləcə, lazım olduğu zaman heç çəkinmədən canını da Rəbbinə təslim edə biləcəyini göstərdi. Kasıblıqdan qorxmadan bütün malını infaq etdi. Bu surətlə dünya sərvətinin onu Allahın zikrindən uzaqlaşdıra bilməyəcəyini, öz nəzərində Allahın zikrinin bütün dünyadan daha qiymətli olduğunu ifadə etdi. Ciyərparası olan övladını Allah üçün qurban etməyə apararaq qəlbindəki Allah sevgisinin bütün fani sevgilərdən üstün olduğunu, könlündəki övlad məhəbbətinin Allah məhəbbətinə kölgə sala bilməyəcəyini sübut etdi. Yəni Haqqa dostluğun ən böyük nişanəsi olan etirazsız təslimiyyət, razılıq, fədakarlıq və məhəbbət imtahanlarının hamısından üzüağ çıxmağa müvəffəq oldu.

Lakin o böyük peyğəmbər bu yüksək fəzilətlərinə və saleh əməllərinə güvən-

məyib yenə də Rəbbinə layiqiylə qulluq edə bilməkdən aciz olduğunu etiraf edərək Allahın rəhmət və məğfirətinə sığındı. Böyük bir aqibət təlaşı içində belə dua etdi: **"(İnsanların qəbirlərindən çıxardılıb) dirildəcəyi gün (qiyamət günü) məni zəlil (rüsvay) etmə!"** (əş-Şuəra, 87)

Demək ki, qulun Haqq qatındakı dərəcəsi artdıqca imtahanlarının şiddəti də artırılır. Allah sevdiyi qullarını səbir, riza və təslimiyyətin ən çətin sınaqlarından keçirir. Ən böyük müsibət və bəlaların peyğəmbərlərə, sonra Allah dostlarına, sonra da dərəcələrinə görə saleh möminlərə gəlməsi də bu hikmətə görədir.

Necə ki, arif qullar Allahdan səhhət və afiyət diləməklə birlikdə dərəcələrinin artmasına vəsilə olacaq bəla və iztirablar azaldıqda və ya gəlmədikdə hallarına görə narahatlıq keçirmiş, tövbə-istiğfarlarını artırmışlar.

Yəni qul, mənəviyyat səmasında yüksəldikcə qulluq ədəbinin keyfiyyəti də son dərəcə incəlik qazanmaqdadır. Bu, eynilə yüksək bir binanın birinci mərtəbəsində oturanla qırxıncı mərtəbəsində oturan kimsənin görüş üfüqündəki genişliyin fərqinə bənzəyir. Dünya özünə yaxınlaşan və içinə dalan adama çox böyük və ucsuz-bucaqsız göründüyü halda, ondan fizi-ki baxımdan və ya könüldən uzaqlaşan kimsənin gözündə kiçildikcə kiçilər. Yəni yaxınlıq və uzaqlıq, yüksəklik və alçaqlıq maddi aləmdə olduğu qədər, mənəvi aləmdə də eyni şeyin müxtəlif cür başa düşülməsinə, həqiqətlərin müxtəlif dərinliklərdə idrak edilməsinə vəsilə olar.

### Otuz İl Tövbə Edilən Bir Həmd

Hədis alimi, eyni zamanda Haqq dostu olan **Seriyy Saqati** həzrətləri tələbələrinə:

*"Möminlərin dərdləriylə dərdlənməyən, bizdən deyildir."*[4] hədisi-şərifini oxudarkən bir tələbəsi gəldi və:

"- Ustadım! Bağdad bazarı yandı, yalnız sizin dükanınız salamat qaldı. Gözünüz aydın!" -dedi.

O da Allahın özünə olan bu lütfü qarşısında:

"- Əlhəmdulillah!" -dedi.

Ancaq dərhal ardınca tələbələrinə oxutduğu hədisi-şərifin sirrində dərinləşərək böyük bir peşmanlıq hissi ilə tövbə etdi. Çünki dükanı yanan mömin qardaşlarının müsibətinə bir anlıq qəflətlə biganə qalmış və onların dərdləriylə dərdlənmə xüsusundakı Nəbəvi əmri o an üçün yerinə yetirə bilməmişdi. Bu hərəkətinə o qədər kədərləndi və hüznə qərq oldu ki, hadisəni illər uzunu unuda

bilmədi. Otuz il sonra qəlbindəki peşmanlığını bir dostuna belə ifadə etdi:

"- Bir an din qardaşlarımın iztirabından qafil qaldığım üçün otuz ildir o anın tövbəsini edirəm..."

Neçə-neçə insan din qardaşlığı hüququndakı laqeydliklərin, duyğusuzluqların, yediyi qul haqlarının tövbəsiylə məşğul olmaq bir tərəfə, bunların fərqinə belə vara bilməzkən, incə qəlbli bir Allah dostu bir anda başqalarını düşünə bilmədən söylədiyi "əlhəmdulillah" sözü üçün otuz il istiğfar edir. Deməli, könül üfüqündəki fərqlilik idrak və anlayışları da tamam fərqli hala gətirir.

### Avamın və Xavassın Təhsil Anlayışı

Bir gün **Mahmud Sami Ramazanoğlu həzrətləri**ni ziyarətə gələnlərdən biri həm möhtərəm ustadın əlini öpüb duasını almaq, həm də yanında gətirdiyi qardaş oğullarını tanış etmək istəyərək belə deyir:

"- Əfəndim! Bu gənclər Amerikada oxuyub mühəndis oldular. Dualarınızı rica edirik!" Əfəndi həzrətləri onlara təbəssüm edərək:

"- Fəqir də Darul-Fünun məzunuyam. Lakin əsl təhsil mərifətullah təhsilidir!" buyurur.[5]

Bununla da bütün elmlərin yalnız mərifətullahla qiymət qazanacağını, mərifətullahdan məhrum olan dünyəvi bir təhsilin insanın əbədi qurtuluşu xüsusunda heç bir işə yaramayacağını ifadə edir.

Sami Əfəndi Darul-Fünunun Hüquq Fakültəsinə girə bilməyin və oradan məzun olmağın çox çətin olduğu bir zamanda bu fakültədən yüksək dərəcəylə məzun olmuşdu. İstəsəydi hər kəsin arzuladığı hüquqla əlaqədar peşələrdən birini rahatlıqla icra edə bildiyi halda, hər hansı bir qul haqqına girməmək xüsusundakı yüksək həssaslığı səbəbiylə bu haqlarından imtina etmiş, dolanışığını təmin üçün də bir idarədə mühasib işləməyi üstün tutmuşdur.

Lakin bir məsələni də qeyd edək ki:

Sami Əfəndinin bu seçimi belə mühüm vəzifələri icra etməməyin lüzumu kimi başa düşülməməlidir. Bu misal həmin peşələrdə çalışanların, nə qədər diqqətli olmalarının lüzumunu ifadə edir.

Xülasə, Allah və Rəsulunda fani olan Haqq dostlarının hər halı məhəbbət, mərifət, ixlas və təqva ilə əhya olmuş bir qəlbin yüksək həssaslığını əks etdirməkdədir. İnsanı Allah qatında qiymətli edən də bu həssaslıqlarla yaşanan bir qulluq həyatıdır. Bunun üçün də Allah dostları bütün hallarıyla bizlərə daim təqva həssaslığını təlim və təlqin etmişlər. Çünki Haqq-Təala bizim də o gözəl bəndələr kimi olma yolunda səy göstərməyimizi istəyir. Qiyamətin o dəhşətli anında Allah dostlarına verdiyi **"onlara qorxu yoxdur, hüznlənməyəcəklər də..."**[6] müjdəsinə biz bəndələrinin də nail olmasını murad edir. Bunun da gözəl bir təqva həyatı yaşamağa bağlı olduğunu bildirir.

**Allah-Təala hər birimizi peyğəmbərlərin, əshabi-kiramın və övliyaullahın izindən gedərək sirati-müstəqim üzrə yaşayan, qəlbləri təqva həssasiyyəti ilə zinətlənən saleh bəndələrindən etsin. Müsəlman kimi yaşayıb, müsəlman olaraq can verə bilməyi və saleh insanlarla həşr olunmağı Lütfi-kərəmi ilə ehsan eyləsin.**

**Amin...**

---

1. Buxari, Dəavat, 68.
2. Əbul-Həsən ən-Nədvi, İmam Rəbbani, s. 180-181.
3. Bax. Yusuf, 18.
4. Bax. Hakim, IV, 352; Heysəmi, I, 87.
5. Bax. Mustafa Eriş, Mahmıd Sami Efendi'den Hatıralar, I, 20-21.
6. Bax. Yunus, 62.

Aqil ƏLİYEV
aqil_77@box.az



# BƏQƏRƏ SURƏSİNİN FƏZİLƏTİ

Şübhəsiz ki, Uca Rəbbimizin bizlərə göndərmiş olduğu Qurani-Kərimin hər bir ayəsinin bir çox sirri, fəziləti və hikməti vardır. Doğrudur? Qurani-Kərimin hər ayəsi ona inanmamız və bizdən istətnilən şəkildə tətbiq etməyimiz üçün nazil edilmişdir. Lakin bununla yanaşı bir müsəlman kimi bu surələrin və ayələrin fəzilətlərini öyrənib bildiyimiz zaman hansı surəni harda oxumağın daha fəzilətli olduğunu, Rəsulullah (s.ə.s) hansı surəni və ayəni nə məqsədlə, hansı gündə, neçə dəfə oxuduğunu da öyrənmiş oluruq. Məsələn; cümə günündə Kəhf surəsini oxumaq, yatmazdan öncə Duxan və ya Mülk surəsini oxumaq, yatağımıza girəndə şeytanın və cinlərin fitnəsindən, şərindən əmin olmaq üçün İxlas, Fələq və Nas surələrini ovucumuza oxuyub üfürüb, bədənimizə sürtdüyümüz kimi bütün bunlar hamısı bizlərə məhz surələrin nə kimi fəzilətləri və faydaları olduğunu göstərir.

Biz hər-hansı bir surənin fəzilətini Rəsulullah (s.ə.s)-in bildirməsi ilə öyrənirik. Yoxsa bu gün surələrin fəzilətləri adı altında bir çox kitablar və ya kitabçalar görürük ki, çoxu həqiqətdən uzaqdır. Məsələn; filan surəni 200 dəfə oxusan, filan ayəni 100 dəfə oxusan bu kimi fəzilətləri və ya faydaları var kimi uydurulmuş bəzi yazılara tez-tez rast gəlmək olur. Bunların nə qədər həqiqət və ya uydurma olduğunu bilmək üçün mütləq Rəsulullah (s.ə.s)-in hədislərinə müraciət etmək lazımdır. Gəlin birlikdə Bəqərə surəsinin fəzilətini oxuyaq:

Hər bir surənin olduğu kimi Bəqərə surəsininn də bir çox fəzilətləri vardır. Bəqərə Qurani-Kərimin ikinci surəsidir. Qurani-Kərimdə olan surələrin ən böyüyüdür. 286 ayədən ibarətdir. Son iki ayəsinin, yəni (Əmənər Rəsulu) kimi məşhur olan ayələrinin Rəsulullah (s.ə.s)-ə Merac hədiyyəsi olaraq verildiyi səhih rəvayətlərdə bildirilməkdədir. Bu iki ayə-

nin oxunma fəzilətləri isə hədislərdə ayrıca yer almaqdadır. Ümid edirik ki, Qurani-Kərimi oxuya bilməyən oxucularımız surələrin nə qədər hikmət və fəzilətlərinin olduğunu bildikdən sonra Qurani-Kərimi mütləq öyrənib davamlı oxuyacaqlar.

Rəsulullah (s.ə.s) buyurdu: *"Bəqərə surəsini oxumağa davam edin. Çünki onu öyrənib oxumaq böyük bir bərəkətdir. Onu tərk etmək, yəni öyrənməmək isə böyük bir ziyandır. Tənbəllərin bunu davamlı oxumağa gücü çatmaz. Onu oxuyana sehrbazların sehri təsir etməz."* (Müslim, Salətul-Müsafirin, 252) Bu hədisin sonunda keçən sehrbazların sehrinin təsiri olmaması ona görədir ki, insanlara ilk dəfə sehri öyrədən mələklərin (Harut və Marut) yer üzərinə endirilməsi hadisəsi məhz Bəqərə surəsinin 102-ci ayəsində bildirilmişdir.

Rəsulullah başqa bir hədisində belə buyurur: *"Evlərinizi qəbiristanlığa çevirməyin. Şübhəsiz ki, içində Bəqərə surəsi oxunan evdən şeytan qaçar."* (Müslim, Salətul-Müsafirin, 254) Burada Rəsulullah (s.ə.s) Quran oxunmayan evləri qəbiristanlığa bənzətmişdir. Sanki bu evdə canlılıqdan əsər-əlamət yoxdur. Belə evlərin sakinləri diri ikən ölü kimidirlər. Ölülər də Quran oxumaz və ibadət etməzlər. Rəsulullahın öz hədislərində əshabələrinə sünnə və nafilə namazları evlərində qılmalarını söyləməsi də buna görədir. (Müslim, Müsafirin, 213)

Həmçinin Rəsulullah (s.ə. s) belə buyurmuşdur: *"Qurani-Kərimi öyrənməyə davam edin. Çünki Qurani-Kərim qiyamət günü onu oxuyanlara şəfaətçi olaraq gələcəkdir. İki çiçəyi (Bəqərə və Ali İmran) surələrini də oxumağa davam edin. Çünki bu iki surə, qiyamət günündə iki bulud topası və ya iki kölgələyici, yaxud qanadlarını açmış səf-səf iki bölük quş kimi gələcəklər və onları oxuyanları (qiyamətin qızdırıcı) hərarətdən, atəşdən qoruyacaq, onlara şəfaət edəcəklər."* (Müslim, Salətul-Müsafirin, 253, Tirmizi, Fəzailul-Quran, 5) Bilindiyi kimi Allahın izin verdiyi şəxslər, hətta Qurani-Kərim qiyamət günündə bizə şəfaətçi olacaq, yəni günahlarımızın bağışlanması üçün Allaha bizim üçün dua edəcəklər. Burada da gördüyümüz kimi Bəqərə surəsi də şəfaət edəcəkdir. Başqa bir hədisdə belə bildirilməkdədir; *"Hər şeyin bir zirvə nöqtəsi vardır. Qurani-Kərimin zirvəsi də Bəqərə surəsidir. Bu surənin hər ayəsi ilə səksən mələk enmişdir."* (Əhməd bin Hənbəl, Müsnəd, 5/26)

Rəsulullah (s.ə.s) Qurani-Kərimi öyrənib oxuya bilənlərə çox hörmət edirdi. Hər-hansı bir savaşda, səfərə çıxanda Quranı bilənləri başçı təyin edirdi. Yenə bir savaşa çıxarkən yaşda ən cavan olan bir səhabənin yanına gəlib soruşdu: *"Ey filankəs sənin əzbərində Qurandan nə var? Cavan; Mən bu suräni, bu suräni və Bəqərə surəsini bilirəm dedi. Rəsulullah (s.ə.s) "yəni sən Bəqərə surəsini bilirsən?" -deyə soruşdu. Hə cavabı alınca; "Onların önünə keç, onların komandiri sənsən" dedi. Məşhur səhabələrdən biri önə çıxıb; "And olsun ki, Bəqərə surəsini əzbərləməmə əngəl olan səbəb, hökmləri ilə əməl edə bilməmək qorxusundan başqa bir şey deyil." Bu sözü eşidən Rəsulullah (s.ə.s) hər birimizə dərs olacaq bir xəbərdarlıq etdi; "Quranı öyrənin, oxuyun və onunla əməl edin. Qurani-Kərimi öyrənib oxuyan və onunla əməl edən şəxsin halı, içi ağzına qədər müşk-ənbərlə dolu kasa kimidir. Onun qoxusu hər tərəfə yayılar. Quranı öyrəndiyi halda, əzbərində də olmasına baxmayaraq oxuyub əməl etməyən şəxs isə, içi müşk-ənbərlə dolu olub, ağzı bağlı kasa kimidir.* (Tirmizi, Fəzailul-Quran, 2, İbn Macə, Müqəddimə, 27)

Gəlin, Rəbbimizin bizə lütf edib, səmadan bir ip kimi bizə endirdiyi mübarək kəlamlardan yapışaq, onların fəzilətlərini öyrənək, çox oxumağa davam edək ki, həm könül evimiz olan qəlbimiz, həm də cənnət bağçası olan ailə evimiz nurla və bərəkətlə dolsun.

# T.C. Diyanət Vəqfinin Mütəvəlli Heyət sədri MAZHAR BİLGİN: Rəsulullahın gətirdiyi mesajlar bütün dünyaya xoşbəxtlik vəd edir.

**İrfan jurnalı:** *Əfəndim, ilk növbədə Azərbaycan haqda təəssüratlarınızı öyrənmək istəyərdik.*

**Mazhar Bilgin:** Mən Azərbaycanı, Bakını çox da inkişaf etməmiş, səliqəsiz bir yer olaraq təxmin edirdim. Ancaq Bakıya ilk ayaq basdığım zaman təxminimdə yanıldığımı gördüm. Hətta əvvəllər Türkiyədən Azərbaycana gələn yoldaşların tərif etdiyindən də gözəl və möhtəşəm bir şəhərlə qarşılaşdım.

**İrfan jurnalı:** *Bildiyimiz kimi səfərinizin məqsədi "Mübarək Doğum Həftəsi" çərçivəsində T.C. Bakı Böyükelçiliyinin Diyanət İşləri Müşavirliyinin təşkil etdiyi tədbirlərdə iştirak etməkdir. Dünənki tədbir haqda oxuculara məlumat verərdiniz mümkünsə!*

**Mazhar Bilgin:** Həqiqətən dünən iştirak etdiyim tədbir çox yüksək səviyyədə keçdi. Ən gözəli isə bu tədbirdə yüksək səviyyəli nümayəndələrin də iştirak etməsi idi. Builki "Mübarək Doğum Həftəsi" münasibəti ilə proqramın mövzusu "İslamda qardaşlıq hüququ" olaraq seçilmişdi. İnanıram ki, Bakının möhtəşəm otellərindən birində keçirilən bu tədbir İslamın qardaşlıq ruhunun ən gözəl nümunələrindən biri kimi yaddaşlara həkk olundu. İstər Türkiyədən gələn müxtəlif təbəqədən olan qonaqların, istərsə də Azərbaycanın hər qrupdan olan insanları bu tədbirdə birlikdə iştirak edirdilər. Bu isə məni çox sevindirdi.

**İrfan jurnalı:** *"Mübarək Doğum Həftəsi" münasibətilə yaddaşlarımızı bir daha təzələsək, Hz. Peyğəmbərin xüsusilə bu gün bəşəriyyətə verdiyi mesajlar nələr olmalıdır.*

**Mazhar Bilgin:** Təbii ki, Hz. Peyğəmbər (s.ə.s) aləmlərə rəhmət olaraq göndərilmiş uca bir Peyğəmbərdir. Onun gətirdiyi ilahi mesaj öz dövründən qiyamətə qədər bəşəriyyətin hər dövrdə dünya və axirət səadəti üçün ehtiyac hiss etdiyi bütün mesajları əhatə edir. Baxın, Allah-Təalanın Hz. Peyğəmbər (s.ə.s)-ə ilk əmri "oxu"dur. Bu isə o deməkdir ki, İslam hələ ilk mesajı ilə oxuyan, özünü inkişaf etdirən, tədqiq etməyi bilən, ağlını lazımi səviyyədə istifadə edə bilən bir ümmət, bir insan istəyir. Bu gün müsəlmanlar İslamın ilk gəldiyi gündəki kimi Qurani-Kərimin ilk ayələrindən başlayaraq İslamı anlamağa çalışmalıdırlar. Təəssüf ki, bu gün İslam aləmi cəhalət içərisindədir. Bu gün İslam dünyasında oxuma səviyyəsi xeyli aşağıdır. Oxumamaq İslam aləmini geriləməyə, az düşünməyə sövq edən

mənfi xüsusiyyətdir. Ona görə də mənim şəxsən ilk qeyd edəcəyim xüsus budur. Çünki İslam özünü bilən, elm sahibi insanlara ehtiyac hiss edir. İkinci olaraq da Qurani-Kərimin sonrakı mərhələdə ilk gələn ayələrinə diqqət çəkmək istəyirəm. Burada insanlara xəbərdarlıq etmək, onlara Rəbbini tanıtmaq, təmizliyə diqqət etmək yer alır. Bizim İslam aləmi olaraq bunlara da ehtiyacımız var. Təəssüf hissi ilə qeyd etməliyəm ki, gəzdiyim İslam ölkələrinin əksəriyyətində bu təmizliyi müşahidə edə bilmədim. İslamın istədiyi müsəlman şəxsiyyətinə sahib olmaq İslam qardaşlığı çox mühümdür. Allah-Təala Qurani-Kərimdə **"Bütün möminlər qardaşdır"** buyurur. Bu ayəni hər bir mömin bilir. Lakin heç birimiz buna riayət etmirik. Hətta elə olur ki, iki qardaş müsəlman olduqdan sonra bir ailə içərisində yola getmirlər. Hətta Avropaya gedəndə müşahidə etmişəm, bir məhəllədə iki məscid var, ancaq birinin camaatı o biri məscidə getmir. Ona görə də bu gün dünyada İslam ümmətinin vəziyyəti acınacaqlı haldadır. Bir mühüm xüsusu da Peyğəmbərimizin həyatından misal verim: Bir gün Peyğəmbərimiz evində ayaqqabısını təmir edərkən, Hz. Xədicə anamız belə deyir: "Ya Rəslullah, nə üçün özünü yorursan, ver, xidmətçilər bu işlə məşğul olsunlar." Peyğəmbərimizin xanımına verdiyi cavab çox xoşuma gəlir. O deyir: "Ey Xədicə! Mən dörd şeyi heç sevmərəm. Bu dörd şeyin şərindən Allaha sığınıram. Bunlar -tənbəllik, xəsislik, qorxaqlıq, pislikdir." Mən deyirəm ki, Peyğəmbərimizin sevmədiyi, Allaha sığındığı dörd şey olaraq bu sözləri bir lövhə halında hər evdə, hər məktəbdə, hər iş yerində ən çox görünən yerə asaq. Peyğəmbərimizin mesajlarından ən çox tətbiq etməyimiz vacib olan şeylər bunlardır. Bu gün İslam aləmi tənbəldir, çalışmır, istehsal etmir. Elə buna görə də hər zaman başqa ölkələrə möhtac olur. Əslində bu gün Avropa bizə ağıl satır. Yəni beş manatlıq bir xammaddəni bizdən alır, istehsal edir və yenidən bizə beş yüz manata satır. Biz də tənbəlliyimiz sayəsində ağlımızı işlətmədiyimiz üçün ona möhtac oluruq. Tarixə baxdığımızda isə görürük ki, nə zaman biz Peyğəmbərimizin mesajlarını doğru şəkildə oxuyub həyatımıza tətbiq etmişik, o zaman birinci olmuşuq. Ancaq nə zaman ki, Qərb bu xüsusiyyətləri bizdən alaraq öz həyatında tətbiq etmiş, biz o zaman geridə qalmışıq. Bu gün İslam aləmində sosial ədalətsizlik var. Bu isə xəsislikdən irəli gəlir. Halbuki Allah-Təala Qurani-Kərimdə 78 yerdə zəkatı, yardımlaşmağı əmr etmişdir. Peyğəmbərimiz də bu haqda "Qonşusu ac ikən özü tox yatan bizdən deyil" buyurur. Bu gün İslam aləmində pislik (natəmizlik) də var. Yəni əhalisinin əksəriyyətini bu gün müsəlmanların təşkil etdiyi bir çox ölkələrə səfər etdiyin zaman hər tərəfdə müsəlmana yaraşmayan natəmizliklə qarşılaşırsan. Başqa ölkələrə getdikdə isə hətta, küçələrin belə tərtəmiz olduğunu görürsən. Peyğəmbərimizin bugünkü əsrimizə verdiyi mesajların ən başlıcası deyərdim ki, yuxarıda qeyd etdiyim hədisdə buyurduqlarıdır. Məhz bu amillər həqiqətən də dünyamızın ən çox möhtac olduğu xüsuslardır.

*Allah-Təalanın Hz. Peyğəmbər (s.ə.s)-ə ilk əmri "oxu"dur. Bu isə o deməkdir ki, İslam hələ ilk mesajı ilə oxuyan, özünü inkişaf etdirən, tədqiq etməyi bilən, ağlını lazımi səviyyədə istifadə edə bilən bir ümmət, bir insan istəyir. Bu gün müsəlmanlar İslamın ilk gəldiyi gündəki kimi Qurani-Kərimin ilk ayələrindən başlayaraq İslamı anlamağa çalışmalıdırlar.*

Hasan Enes ÜNLÜ
hasanenesunlu@hotmail.com

# QORXUSUZ QƏLƏM

Varlığımızı davam etdirdiyimiz həyatda istər canlı olsun, istərsə cansız hər kəsin bir vəzifəsi var. Mənim vəzifəm təhsilimi tamamlayıb vətənimə qayıtmaq, müəllimlərimin vəzifəsi hər dəfə dərsə girəndə bizə öyrənməli olduqlarımızı çatdırmaq, birlikdə xidmət etdiyimiz qardaşlarımın vəzifəsi də insanlara yardım əli uzatmaqdır. Bizdən savayı cansız varlıqların da yerinə yetirəcəkləri müəyyən vəzifələri var. Bitkinin vəzifəsi havanı oksigenlə təmin etmək, küləyin vəzifəsi havadakı zərərli qazları dağıtmaqdır. Bu nümunələri sayaraq çoxalda bilərik. Lakin mən bunlardan yalnız birinin vəzifəsini daha ətraflı yazaraq duyğularımı sizinlə paylaşmaq istəyirəm.

Ön plana çıxarmaq istədiyim bu cansız varlıq-qələmdir. Vəzifəsi isə hər kəsin bildiyi kimi yazmaqdır. Qələm yazmalıdır. Bəli, yazmalıdır, amma doğrunu yazmalıdır. Əsas vəzifəsi də budur. Yəni doğrunu yazmaq. Kədərlənsə də, sevinsə də, ağlasa da, gülsə də yazmalıdır. Bəhanəsi olmamalıdır. Bu gün yorğunam, bu gün kefim yoxdur deyə dərdini ətrafdakılara əks etdirməməlidir. Onun vəzifəsi nə olur-olsun, doğrunu yazmaqdır.

Yazacağı hər şey insanı xoşbəxt etməlidir. İnsanların azad və firavan mühitdə yaşamasını təmin etməlidir. Yazdıqları, ya da yazacaqları insanları narahat etməməli, cəmiyyətə mənfi cəhətdən təsir göstərməməlidir. Yeri gəldikdə bizi bir ana kimi qorumalı, yeri gəldikdə bir sərkərdə kimi döyüşə hazırlamalıdır. Yeri gəldikdə bizə nağıllar oxuyaraq yatırmalı, yeri gəldikdə də gerçəkləri söyləyərək xəbərdarlıq etməlidir. Həqiqətləri gözümüzün içinə baxaraq deməlidir.

Qələm çox vaxt təkbaşına heç bir məna ifadə etməz. Onun bir sahibi, onu tutan bir əl var. Hər qələm sahibinin isə bir həkimin Hipokrat andı içməsi, yaxud da bir əsgərin vətənini qorumaq üçün andiçmə mərasimində bütün ruhuyla hayqırması kimi and içməsi lazımdır. Bəs

bunun səbəbi nədir? İnsanları aldatmamaq, onları yalan sözlərlə doğru bildiklərindən yayındırmamaq, onları xoşbəxt edə bilmək. Bu səbəblər üçün hər qələm sahibi əvvəlcə özünə, sonra içində yaşadığı cəmiyyətə söz verməlidir.

Qələmlər bir bölük əsgərin komandirdən əmr gözləməsi kimi bizim onlara əmr verməmizi gözləyir. Biz komandirik, yazmaq üçün can atan o qələmlərin komandirləriyik. Qələmlər hazır qitə yazmağa can atarkən biz ürkək ola bilmərik. Gerçək nədirsə ortaya qoymalıyıq. Cəmiyyəti maraqlandıran hər şeyi gün işığına çıxarmalıyıq. Bəzən üstüörtülü yazarkən, bəzən daha diqqətə çarpacaq formada sərgiləməliyik hünərlərimizi. Bəzi qələm sahiblərinin başıboş şəkildə qorxusu olmadan dilə gətirdiklərini görüb biz daha cəsarətli bir şəkildə qələmimizə əmr verməliyik.

Yazdıqlarımız bəzi insanların xoşuna gəldiyi halda şübhəsiz ki, bəzilərin xoşuna gəlməyəcək. Lakin biz yenə də doğrunu yazmaqdan boyun qaçırmamalıyıq. Başqasının səhv bildiyini qələmimiz sayəsində təbii ki qarşımızdakını incitmədən izah etməyi bacara bilməliyik.

Doğru bildiyimizin ardınca düşməliyik, amma bizim doğru bildiyimiz həqiqət deyilsə başqa qələmlərin sayəsində öyrənməkdən də geri durmamalıyıq. Digər qələmləri yox saymamalıyıq.

Ətrafımızda bir çox qələm tutan əl var. Doğru ya da səhv hər kəs nə isə yazmaq həvəsindədir. Bizim fərqimiz isə «bismillah» deyərək doğruları yazmağa cəhd etməmizdir. Qələmi doğru şəkildə, əsl vəzifəsi istiqamətində istifadə edərək yazmalıyıq.

Bundan sonra bizim borcumuz qorxmadan vəzifəsini yerinə yetirmək üçün can atan qələmimizə əmr verməkdir. Hər zaman doğrunu demək, doğrunu yazmaq təmənnasıyla...

## KARACAAHMET[1]

Deryada sonsuzluğu zikretmeye ne zahmet!
Al sana, derya gibi sonsuz Karacaahmet!

Göbeğinde yalancı şehrin, sahici belde;
Ona sor, gidenlerden kalan şey neymiş elde?

Mezar, mezar, zıtların kenetlendiği nokta;
Mezar, mezar, varlığa yol veren geçit, yokta...

Onda sırların sırrı: Bulmak için kaybetmek.
Parmakların saydığı ne varsa hep tüketmek.

Varmak o iklime ki, uğramaz ihtiyarlık;
Ebedi gençliğin taht kurduğu yer, mezarlık.

Ebedi gençlik ölüm, desem kimse inanmaz;
Taş ihtiyarlar, servi çürür, ölüm yıpranmaz.

Karacaahmet bana neler söylüyor, neler!
Diyor ki, viran olmaz tek bucak, viraneler,

Zaman deli gömleği, onu yırtan da ölüm;
Ölümde yekpare an, ne kesiklik, ne bölüm...

Hep olmadan hiç olmaz, hiçin ötesinde hep;
Bu mu dersin, taşlarda donmuş sukuta sebep?

Kavuklu, başörtülü, fesli, başacık taşlar;
Taşlara yaslanmış da küflü kemikten başlar,

Kum dolu gözleriyle süzüyor insanları;
Süzüyor, sahi diye toprağa basanları.

Onlar ki, her nefeste habersiz öldüğünden,
Gülüp oynamaktalar, gelir gibi düğünden.

Onlar ki, sıfırlarda rakamları bulmuşlar,
Fikirden kurtularak, ölümden kurtulmuşlar.

Söyle Karacaahmet, bu ne acıklı talih!
Taşlarına kapanmış, ağlıyor koca tarih!

Necip Fazıl KISAKÜREK

1. Karacaahmet İstanbulun ən qədim və böyük məzarlığıdır.

Adem ŞAHİN
ameha0@hotmail.com

# MƏDƏNİYYƏTİMİZDƏ TƏMİZLİK

Jurnalımızın keçən aykı sayında Antik Roma mədəniyyətinə aid Efes xarabalıqlarına və oradakı ayaqyollarına xəyali səyahət etmişdik. İndi də bizdən qat-qat mədəni olan (?) avropalıların küçələrini gəzək. Gəzək ki, mədəniyyətimiz artsın. Ölkəmizə qayıdanda çanta dolusu mədəniyyət gətirib geri qalmış ölkəmizi aydınladarıq. Görək, Efesdəki ayaqyollarından bu günə nə qədər inkişaf olub? Yolda qarşımıza eyni anda dörd nəfərin ehtiyacını qarşılaya biləcəyi səyyar və 3 tərəfi açıq ayaqyolu çıxır.

Yeməkdən əvvəl və sonra, həmçinin ayaqyolundan çıxdıqdan sonra əllərin yuyulması təlqini ilə böyüdüyümüz üçün səyyar ayaqyolunda suyun olmaması diqqətimizi çəkir. Get, işini gör və su ilə təmizlənmədən yoluna davam et. Yolda rastına çıxan dost-tanışla salamlaş və qucaqlaş. Əlini yumasan da olar. Evə gedib vananı doldurarsan. İçindəki suya qarışan bədəninin kiriylə yenidən təmizlənərsən. Kirin dövr etməsi hadisəsi budur. Kir və mikroblarda azalma və məhv olma yoxdur. Mədəniyyət adlandırdıqları budur. Qlobal istiləşmənin artdığı və şirin su qaynaqlarının azaldığı bir dövrdə milyonlarla müsəlman təmizlik üçün əlini yuyur, dəstəmaz və qüsl alır. Belə olmaz axı!

Ayaqyolu ehtiyacını ayaq üstə görmək üçün istehsal olunan pisuarların Antik Roma zamanında da dəyişik formaları vardı. Müasir pisuarın ilk patenti 1866-cı ildə Amerikada alınmışdır. Əlimizdəki bu məlumatlardan ayaq üstə bövl etməyin bəşər tarixi qədər qədim olduğunu anlayırıq. Pisuarlar daha asan və əlverişli olmaq baxımından tərcih edilir. Dünyadakı pisuar oyunları İngiltərə və Yaponiya başda olmaqla davam etməkdədir. Təmizlik baxımından, həmçinin məsanədəki sidiyin tam boşalmadığından prostat problemlərinə səbəb olur.

İslam fiqhində sidikdən uzaqlaşmaq üçün xüsusi bir termin – istibra deyimi var. Bəraət təmizə çıxmaq, qurtulmaq mənasına gəlir və istibra ilə eyni kökdəndir. Bərat gecəsi günahlardan, məhkəmədəki bəraət ilə də cinayətdən, istibra ilə isə bədən və

patlarların sidikdən təmizlənməsi təmin olunur.

İstibranın termin mənası isə belədir: Ayrılmaq, uzaqlaşdırmaq, bövldən sonra sidikdən təmizlənmək, idrar əsərinin tamamən kəsilməsini gözləməkdir.

Sidikdən təmizlənməmək insanın dünyada və axirətdə zərərə düçar olmasına səbəbdir.

Dünyadakı zərəri: İman etsə də, etməsə də insanın zehnini və könül dünyasını qarışdıraraq, vəsvəsə və pis fikirlərə meyl etməsinə səbəb olur. İmamın səhv oxumasının səbəblərindən biri də sidik təmizliyinin tam edilməməsidir.

Həzrət Peyğəmbər (s.ə.s) bir dəfə sübh namazını qıldırarkən şübhəyə düşərək səhv etdi. Namazı qılandan sonra buyurdu:

"Bəzilərinə nə olur ki, bizimlə birlikdə namaz qılırlar, amma təharətlərini təmiz etmirlər. Quranı qarışdırıb oxumağımızda çətinlik çıxaranlar məhz onlardır." (Sünəni-Nəsai, 2-ci cüz / 156)

İstibranın tam edilməməsinin zərəri qəbirdə də davam edər:

Rəsulullah bir qəbrin yanından keçərkən əzab görən iki insan səsi eşitdi və belə buyurdu: "Bunlar əzab görürlər. Özü də əzab görmələrinin səbəbi o qədər böyük deyil. Biri sidiyindən istibra etməzdi, digəri isə insanlar arasında söz gəzdirərdi." (Səhih-Buxari Müxtəsəri Təcridi-Sarih, cild 1, səh-175)

Hədis kitablarında Peyğəmbərimizin ayaqyolu ehtiyacını adətən oturaraq gördüyü nəql edilir. Sünnəyə uyğun olan və tövsiyə edilən budur. Lakin bəzi müstəsna hallarda (ehtiyacını təmin edəcəyi yerin təmiz olmadığı hallarda) bu ehtiyacı ayaq üstə də təmin etdiyi olmuşdur.

Cabir bin Abdullah: "Hz. Məhəmməd (s.ə.s) dəstəmaz pozmaq istəyəndə heç kimin olmadığı tənha yerə gedərdi", -demişdir. (Əbu Davud, Təharət, 1)

Həzrət Peyğəmbərə vəhyin ilk gəldiyi zamanlarda paltarını təmiz tutmasının əmr olunması Hollandiyadakı səyyar ayaqyollarını və bu xüsusda laqeydlikləri gördükcə daha aydın başa düşülür.

**"Ey (libasına) bürünüb sarınan (Peyğəmbər)! Qalx (qövmünü Allahın əzabı ilə) qorxut! Öz Rəbbini uca tut! Libasını təmizlə!"** (əl-Muddəssir, 1-4)

Təfsirçilər buradakı "libasını təmizlə" əmrini açıqlayarkən bu şərhi verirlər:

"Özünü nəcasətdən yaxşı qoru. Çünki təharətsiz namaz səhih olmaz. O, namaz üçün fərz, namaz xaricində isə sünnədir." (əl-Beydavi, Ənvarut-Tənzil və Əsrarut-Təvil, II, 285)

Məşhur bir hekayə var:

Bir mədrəsə tələbəsi vəz vermək üçün kürsüyə çıxır: "Ey camaat, Hz. Yaqub qızını qurban etmək istəyərkən Allah Əzrayılı bir keçi ilə göndərdi. Hz. Yaqub keçini elektroşokla qurban etdi və qurban ibadəti bugünümüzə qədər gəlib çıxdı." Vəzi bitirdikdən sonra ustadının yanına gələrək soruşur: "Ustad, necə vəz verdim, yaxşı oldu?"

Bizə mədəniyyət dərsi verərək xor görənlər də bu tələbə kimi hal diliylə "mədəniyyətimiz necədir?" –deyə sual verib üstün olduqlarını iddia edirlər.

Kəlmeyi-şəhadət gətirən insanın öyrəndiyi ilk mövzu nədir sualı ilə mövzunu sonlandıraq:

Kəlmeyi-şəhadətdən sonra təmizlik, istibra və dəstəmaz öyrənilir.

Mədəniyyət də budur.

*Rəsulullah bir qəbrin yanından keçərkən əzab görən iki insan səsi eşitdi və belə buyurdu: "Bunlar əzab görürlər. Özü də əzab görmələrinin səbəbi o qədər böyük deyil. Biri sidiyindən istibra etməzdi, digəri isə insanlar arasında söz gəzdirərdi." (Səhih-Buxari Müxtəsəri Təcridi-Sarih, cild 1, səh-175)*

Pərvanə ƏFƏNDİYEVA

# HƏSƏDİN ZƏRƏRLƏRİ

İnsana naqislik gətirən, onu dəyərsizləşdirən və alçaldan xüsusiyyətlərdən biri də həsəddir. Bu xislət o qədər mənfi səciyyələndirilir ki, hətta bu "xəstəliyə" tutulan şəxs belə onu pisləyir. Bəzən insan bu hissi qəlbinin dərinliklərində gizlədərək onun aşkara çıxmasına yol vermir. Bəzən isə elə insanlar olur ki, qəlbində alovlanan həsəd hissinə qalib gələ bilmir, onun əlamətlərini çöhrəsinin cizgilərində, sözlərində və qeyri-ixtiyari hərəkətlərində büruzə verir. Həsəd adətən eyni peşə sahibləri arasında baş verir. Belə insanlar digərinin cəmiyyət tərəfindən sevilib hörmət olunmasına, həyatda qazandıqları nailiyyətlərinə, bir sözlə, bütün müsbət keyfiyyətlərinə dözə bilmir, yalnız özünün bu üstünlüklərə sahib olub, onun isə məhrum olmasını istəyir. Bunun nəticəsində də insanın qəlbində həsəd apardığı şəxsə qarşı kin-küdurət, nifrət və ədavət yaranır. Belə bir "virus"u daşıyan insan cəmiyyətdə ən zərərli şəxs hesab olunur. Çünki o, insanların xoşbəxtliyindən xoşlanmayaraq onlara bədbəxtlik arzulayır, fürsət tapdıqca isə qisas almaq məqsədilə öz "düşməninə" qara yaxır, onu hörmətdən salır, haqqında nalayiq sözlər danışır və ona qarşı açıq-aşkar "düşmənçiliyə" başlayır. Təsadüfü deyil ki, yer üzərində baş vermiş ilk qətl hadisəsinə də səbəb həsəd olmuşdur. Belə ki, Adəm (ə.s)-ın iki oğlu qurban gətirdikləri zaman Allah birinin qurbanını qəbul etmiş, digərinin isə qurbanı qəbul olmamışdır. Qurbanı qəbul olmayan Qabil öz doğma qardaşı Habilə həsəd apararaq nəhayət onu öldürmüşdür.

Deyilənlərdən belə nəticəyə gəlirik ki, həsəd – Allah-Təalanın hər hansı bir bəndəsinə bəxş etdiyi maddi və ya mənəvi nemətə göz dikərək onun əlindən çıxmasını arzulamaqdır.

İnsan ruhunun saflaşmasına və mənəviyyatının gözəlləşməsinə xidmət edən müqəddəs İslam dini həsəd xislətini pisləmiş və insan övladına bu çirkin xüsusiyyətdən uzaqlaşmağı, gözəl fəzilətlər və ali dəyərlərlə mənəviyyatını zənginləşdirməyi tövsiyə etmişdir. Allah-Təala buyurmuşdur:

**"Allahın (maddi, yaxud mənəvi cəhətdən) birinizi digərinizdən üstün tutduğu, birinizə digərinizdən artıq verdiyi şeyi (özünüz üçün) arzulamayın... "** (ən-Nisa, 32 )

Gözəl əxlaq sahibi, kamillik zirvəsini fəth etmiş, bəşəriyyət üçün əsl nümunə olan Həzrət Rəsulullah (s.ə.s) buyurmuşdur:

*"Alovun quru odunu yandırdığı kimi, həsəd də savabları məhv edər."* (Əbu Davud)

İmam Əli (ə.s) buyurmuşdur:

*"Həsəd ən pis (ruhi) xəstəlikdir "*

*"Duz suda həll olduğu kimi, möminə həsəd aparan kəsin də qəlbindəki iman yox olar."*

Hər hansı bir xəstəliyi müalicə etməzdən əvvəl onun mahiyyəti və yaranma səbəbləri öyrənilir, sonra isə həmin xəstəlik müalicə olunur. Buna görə də, həsəddən xilas olmaq istəyən hər bir kəs onun yaranma səbəblərini bilməlidir. Aşağıda həmin səbəblərdən bəzilərini qeyd edirik:

1. İnsan təbiətinin xəbisliyi
2. Düşmənçilik və nifrət
3. Dünyaya məhəbbət və vəzifəpərəstlik
4. Təkəbbürlük və s.

İnsanlarda olan həsədin dərəcələri keyfiyyət baxımından fərqlidir. Bu fərqlər aşağıdakı qismlərdə öz əksini tapır.

1. Qəlbdə aparılan həsəd. İnsan qəlbində həsəd aparır, lakin bu hissin haram olduğunu dərk edir və buna görə də onu büruzə vermir, heç bir pisliyə də əl atmır.

2. Başqasında gördüyü müəyyən bir nemətə həsəd aparmaq. Bu halda həsəd aparan şəxs başqasının bütün üstünlüklərinə deyil, müəyyən bir üstünlüyünə həsəd aparır və onun əlindən çıxıb öz əlində olmağını istəyir.

3. Başqasının bütün üstün cəhətlərinə həsəd aparmaq. Belə şəxs başqasının özündən üstün və ya özünün ondan aşağı səviyyədə olmağı ilə razılaşmadığı üçün ona həsəd aparır.

4. Başqasının bədbəxtliyini arzulamaq. Bu, həsədin ən şiddətli növüdür. Bu zaman həsəd aparan şəxs hər cür pisliyə əl atır.

Həsəddən xilas olmaq üçün hər şeydən əvvəl bilmək lazımdır ki, həsəd aparan adam həm bu dünyada, həm də axirətdə əzab-əziyyətlə qarşılaşır. O, bu dünyada hər hansı bir şəxsdə gördüyü yaxşı şeylərə həsəd apardığı şəxsə deyil, yalnız özünə zülm etmiş olur. Çünki belə insan başqalarında gördüyü nemətlərə həsəd apardıqca qəm-qüssəyə qərq olur. Allahın nemətləri sonsuz və bəndələrinə qarşı lütf və ehsani ardıcıl, mütəmadi olduğundan, insan bu hissdən uzaqlaşmadıqca daxilən iztirab və əzab-əziyyət çəkir.

*İmam Əli (r.a) buyurmuşdur: " Həsəd dərd, qəm – qüssə gətirər."* (Qurərul-hikəm)

İmam Cəfəri-Sadiq həzrətləti buyurmuşdur: *"Simic adam rahatlıqdan, paxıl adam isə ləzzətdən məhrum olar."*

İnsan başqalarının sahib olduğu nemətlərə, üstünlüklərə və ali keyfiyyətlərə həsəd aparmamalı, hər hansı bir şeyi arzuladıqda onu böyük lütf və ehan sahibi olan Allah-Təaladan istəməlidir. Allah-Təala Qurani-Kərimdə buyurur: **"(Ya Məhəmməd!) De: - Ey mülkün sahibi olan Allah! Sən mülkü istədiyin şəxsə verər, istədiyin şəxsdən alarsan, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən!"** (Ali-İmran, 26)

Həsədin axirətdəki zərərinə gəlincə isə bilmək lazımdır ki, həsəd Allahın lütf və ehsanına qarşı etiraz, bəndləri arsında böldüyü qismətlə razılaşmamaqdır. İnsan həsədə səbəb olan amillərdən uzaqlaşmalı, özünü Qiyamət gününün cəzasından qorumalıdır. Əgər həsədə səbəb təkəbbürlükdürsə, onda həmin şəxs təvazökarlıqla zinətlənməlidir. Yox, əgər maldövlət düşkünü olmaqdırsa, həmin şəxs dünya malına meyil göstərməməli və onun fani olduğunu dərk etməlidir.

Amma qeyd edək ki, insan başqasının sahib olduğu nemətin əldən çıxmasını istəmədən onu özü üçün arzulayırsa, bu həsəd deyil, "Qibtə" adlanır. Qibtə ilə bağlı Allah Rəsulunun bir çox hədisi-şərifləri vardır.

Gəlin, cənnət nemətləri, Allah dəzgahında uca məqamlar və ilahi rizanı qazanmaq uğrunda rəqabət aparaq, bir-birimizə qibtə edək, gecə-gündüz xalis niyyətlə Allaha ibadət edib saleh əməllərə sahib olmağa çalışaq. Çünki dinimiz insanın mənəvi zənginliyini önə çəkmiş və mənəviyyatına xələl gətirən təhlükələrdən qorunmağı ona tövsiyə etmişdir.

Anar QURBANOV
akurban78@hotmail.com

# SUAL-CAVAB

**1. Daşınmaz əmlakın alqı-satqısı zamanı "beh" vermək, ya da almaq caizdirmi?**

**Cavab:** Hər hansı daşınmaz əmlakın alqı-satqısı zamanı "beh" adı ilə müştəri tərəfindən əvvəlcədən, yəni müqavilə bağlanan zaman ödənilən müəyyən məbləğin, daha sonra müştərinin həmin müqavilədən birtərəfli şəkildə imtina etməsi nəticəsində, verdiyi "beh"in satıcıya qalması məsələsi tarix boyunca müzakirə obyekti olmuşdur. Qurani-Kərimdə bu mövzu ilə bağlı hər hansı məlumat olmamaqla yanaşı, Sünnədə həm caiz olduğuna, həm də caiz olmadığına dəlalət edən hədislər vardır (bax. Malik, Müvəttə; Şövkani, Neylül-Övtar). İslam hüquqşünaslarının əksəriyyəti bu kimi müqavilənin etibarsız olduğunu və müqavilənin pozulması nəticəsində alınan behin geri qaytarılmasına qərar vermişlər. Lakin, islam hüquqşünaslarının bəziləri də, bunun caiz olduğu fikrini irəli sürmüşlər. Xüsusilə, 1994-cü ildə İslam Fiqh Akademiyasının aldığı qərarlarda bunun caiz olduğu qərara alınmışdır. Belə ki, "beh" vermək şərti ilə bağlanan müqavilə bir qayda olaraq caizdir. Müştəri qərarından vaz keçməzsə, verdiyi "beh" qərarlaşdırdıqları digər məbləğə əlavə edilir. Əks təqdirdə, yəni müqavilədən imtina edərsə, verdiyi "beh" satıcının mülkiyyətinə keçər.

Nəticə etibarilə, qeyd etmək lazımdır ki, müştəri alacağı əmlakı, satıcıdan müəyyən bir müddət öz adına gözlətməsini tələb etməsi, sonra da almaqdan imtina etməsi nəticəsində əgər müştəri həqiqətən zərərə məruz qalıbsa, əvvəlcədən alınan "beh" həmin zərəri ödəmək məqsədilə müştəriyə qaytarılmayaraq satıcıda qalması halaldır. Əks təqdirdə, əmlakı sadəcə olaraq bir müddət beh verən müştəri üçün saxlamasına baxmayaraq, sonradan bazar qiymətinə uyğun başqasına satarsa, artıq əvvəlki müştəridən aldığı beh ona halal olmaz və geri qaytarmalıdır. Çünki bu vəziyyətdə satıcının məruz qaldığı hər hansı zərər yoxdur və qaytarılmayan beh əsassız yerə başqasının pulu mənimsəmək olduğu üçün həm dini, həm hüquqi, həm də əxlaqi baxımdan düzgün deyildir.

**2. Nisyə satışlarda qoyulan əlavə məbləğ caizdirmi? Həmin məbləğ faiz sayılırmı?**

**Cavab:** İslam alimlərinin əksəriyyəti nisyə satışlarda qoyulan əlavə məbləğin caiz olduğunu bildirmişlər. Belə ki, Hz. Peyğəmbərin şərtli alış-veriş etdiyi və buna icazə verdiyi ilə bağlı səhih hədislər mövcuddur. Belə olan təqdirdə, nisyə

satışlarda qoyulan əlavə məbləğ faiz sayılmır. Çünki pul ilə pul olmayan bir mal istər nağd, istərsə də nisyə satılsın, qiymət fərqi faiz sayılmır. Yəni burada pul qarşılığında pul satılmadığına görə faizdən bəhs etmək qeyri-mümkündür. Bundan əlavə, nisyə satışlardakı qiymət fərqinin yalnız müəyyən edilən müddətin əvəzi olaraq hesab edilməsi də kifayət deyildir. Çünki başqa bir sıra səbəblər də nağdla nisyə arasında fərq qoyulmasını zəruri edə bilər. Məsələn, malını nağd satıb pulunu alan bununla işini tamamlamış olur. Lakin malını nisyə satan sahibkar isə, borcları qeydə almaq, vaxtaşırı təqib etmək, borcun dalınca düşərək almaq, eləcə də bunun üçün bir sıra əlavə xərclər sərf etmək və s. kimi işlərlə qarşı-qarşıyadır və bütün bunlar nisyə satışlardakı qiymət fərqini zəruri edir. Həmçinin, malını nisyə satan sahibkar müəyyən müddət həmin malın əvəzini ala bilməyəcək, onu dövriyyəyə buraxa bilməyəcək və nəticə etibarilə, əlavə gəlirdən məhrum olacaqdır. Elə isə, sözügedən məhrumiyyət də nisyə satışlardakı qoyulan əlavə məbləğin digər bir səbəbi ola bilər. Bundan başqa, nisyə satışlarda mal müştəriyə verilmiş və onun mülkiyyətinə keçmişdir. Ancaq satıcı nöqteyi-nəzərindən pulu ala bilməmək və inflyasiya ehtimalı da vardır. Bunu da vurğulamalıyıq ki, nisyə alış-verişdə qeyri-müəyyənlik də yoxdur. Çünki alıcı ilə satıcı malın nisyə qiymətində razılaşıb müqavilə bağlamışlar. Bütün bunlara əlavə olaraq qeyd etmək lazımdır ki, İslam hüququndakı səddi-zərayi prinsipinə müvafiq olaraq nisyə satışlarda qoyulan əlavə məbləğin tamamilə qadağan edilməsi, imkansız insanların işini daha da çətinləşdirməklə nəticələnər. Belə ki, bu kimi müqavilə qadağan edildiyi təqdirdə, sahibkar malını nağd qiymətlə satmağa meyil edəcək, mala ehtiyacı olan, əlində nağd pul olmadığı üçün borc pul axtaracaq, borc tapa bilməyən də məcburiyyət qarşısında faizli kredit almağa yönələcəkdir. Məhz bu haram yolun qarşısını almaq üçün, əlavə məbləğlə edilən nisyə satışların qarşısı alınmamalıdır.

**3. Bir müsəlman həyatda ikən öz var-dövlətini istədiyi kimi bölüşdürə bilərmi? Yəni əmlakını bölüşdürərkən Qurani-Kərimdə qeyd edilən vərəsəlik qanunlarına riayət etməsi məcburidirmi?**

**Cavab:** İlk növbədə onu qeyd etmək lazımdır ki, həyatda olan bir insan özünə məxsus olan, yəni özünün mülkiyyətində olan var-dövlətini qeyri-qanuni/qeyri-məşru olmamaq və haqsızlıq etməmək şərtilə istədiyi kimi sərf etməkdə ixtiyar sahibidir. Belə olan təqdirdə, bir müsəlmanın həyatda ikən öz var-dövlətini Qurani-Kərimdəki vərəsəlik qanunlarına görə bölüşdürmək məcburiyyəti də yoxdur. Lakin bölüşdürərkən övladlarına, eləcə də digər varislərinə qarşı haqsızlıq etməməyə diqqət etməlidir. Bu, onun dini-əxlaqi vəzifələrindəndir. Bundan əlavə, əgər vəsiyyət edəcəksə, varislərindən olmayanlara var-dövlətinin 1/3 hissəsindən artığını vəsiyyət edə bilməz. Əgər var-dövlətinin hamısını varis olmayan başqa bir şəxs üçün vəsiyyət etsə belə, vəsiyyətin yalnız 1/3 etibarlıdır, qalan 2/3 ikisi isə, varislərindir. Bundan başqa, Hz. Peyğəmbərin də buyurduğu kimi, bir müsəlman öz varisləri üçün vəsiyyət etməməlidir. Çünki onun qoyulan mirasda vərəsəlik üzrə müvafiq hissəsi vardır. Əgər varislərdən birinə vəsiyyət edərsə, bütün varislər tərəfindən qəbul edilmədikcə bu vəsiyyət də etibarsızdır.

Samir HƏMZƏYEV
samir_nurullahoglu@yahoo.com

# HÖRMƏT, YOXSA?..

Modernləşmə adı altında gündən-günə maddiləşən dünyamızda bir cox mənəvi dəyərlərin təhrifi danılmaz həqiqətdir. Bu dəyərlərin təhrifi məsələsiylə hamımız bir nəfər kimi razılaşırıq, amma bu dəyərlərin təhrif olunmasında nə qədər payımız var bunu çox vaxt tərəzinin gözünə qoyaraq ölçməkdə, qiymət verməkdə gecikirik ya da tərəddüd edirik. Müasir həyat və iş standartları o şəkildə formalaşdırılmışdır ki, köhnə dövrlərlə müqayisədə bu gün vəzifəpərəstlik daha qabarıq və daha cəlbedici formada təzahür etməkdədir. Əslində isə vəzipərəstlik, yaltaqlıq, riyakarlıq, ikili standartlarla münasibət ta qədim dövrlərdən məlumdur. Misal olaraq vəzir, vəkil, əyan və əşrafların şaha qarşı bəslədiklədikləri yersiz hüsn-rəğbət bunun bir təzahür formasıdır. Həmçinin cahilliyyə dövrünün Məkkəsində şairlərin Məkkə sahibi Əbu Süfyana mədhiyyələr yazması kimi. Bu anlayış müxtəlif dövrlərdə müxtəlif şəkildə təzahür edib. Dövrün tələbinə, ictimai şüura, düşüncəyə və s. görə. Bir növ tələb və təklif formasını almışdır. Bəşər tarixi boyunca bu prosesi kimlərsə inkar etsə belə həqiqətin özü budur. Təəssüf olunacaq bir hal odur ki, əslində bu cür normal olmayan hallar zamana, məkana və fərdlərə görə fərqli şəkildə şərh olunur və qiymətləndirilir. Razıyam ki, vəzifə sahibi bir kimsəyə vəzifəsinin gərəyi kimi hörmət və ehtiramın göstərilməsi normal bir haldır və hətta bir çox məqamlarda lazım məsələdir. Bir orduda komandanın sözünün dinlənməsinin, bu ordudakı di-

siplinin yüksək səviyyədə olmasına və bunun hansı səviyyədə vacib olmasına dəlalət etməsi kimi. Həmçinin bir tələbənin özünə elm qapılarını açan müəlliminə qarşı bəsləməli olacağı hörmətin həddi. Bir kəlmə ilə həqiqi mənada hörmət və ehtiramdan bir zərər gəlməz, əksinə xeyir vəd edər. Üstəlik qarşınızdakı adam bunun hansı məna ehtiva etdiyini anlayacaq səviyyədədirsə. Bunlar normal haldır.

Bəs bizim bu hörmət və ehtiramımız həmin kimsənin təmsil etdiyi vəzifənin gərəyidir? Müəyyən bir çərçivə daxilindəmi tazahür edir? Yoxsa tam əksinə, şəxsiyyətə pərəstişə aparır bizi? Bu məsələ həyatda kimisə örnək və rəhbər kimi qəbul etmək məsələsiylə qarışdırılmamalıdır. Birincidə nəyə görəsə pərəstiş (maddiyyat,vəzifə və s.), ikincidə mənəvi və şəxsi keyfiyyətlər. Birincidə qarşılıq gözləmək və acizlik hissi. İkincidə qarşılıqsız və könüllülük. Bir sözlə, bu iki məfhum eyni müstəvidə qiymətləndiriləcək məsələ deyil. Bəs bu şəkildə formalaşdırılan münasibətlər bizə nələr vəd edir? Təkəbbür, lovğalıq, yaltaqlıq, riyakarlıq və s. kimi şəxsiyyəti məhv edəcək fəsadlar vəd edir. Bəs bunlar müsəlman şəxsiyyətiylə bir arada mövcud olacaq xüsusiyyətlərdirmi? Şübhəsiz ki, cavab xeyr olacaq. Amma həqiqi mənada həyata baxsaq, həyat bizə yaşadıqlamızı göstərir. Bir vəzifənin gərəyi kimi vəzifənin haqqını qorumaqla, hər halda vəzifənin verdiyi səlahiyyətlə özümüzü bizdən vəzifəcə aşağı kimsələrdən şəxsiyyət olaraq üstün görməyimiz (ucüb) arasında böyük fərq var. Hər halda tədbirli olmaq həm vəzifəmiz, həm adımızın gərəyi, həm də Allahın bizə buyurduğudur. Allah qürrələnənləri sevməz (ən-Nəhl, 23) Allahın hökmləri və hədislər bizə hər şeyi tam aydınlığıyla ifadə edir. Deməli, bizə düşən vəzifəmizdən asılı olmayaraq daim diqqətlə bu vəzifəni yerinə yetirərkən kimlərisə kiçik görərək əzməmək prinsipinə əsaslanmalıdır. Həmçinin rəhbərliyimiz altında olan kimsələrlə o şəkildə bir münasibət sərhədləri müəyyənləşdirməliyik ki, bu nə bizim ucüb, lovğalıq və təkəbbürə düşməyimizə, nə də qarşımızdakıların riyakarlıq və yalataqlıqlarına səbəb olsun. Çünki biz rəhbərliyində olduğumuz kimsələrə qarşı təkəbbürlə yanaşır, onları kiçik görür və onlardan özümüzə qarşı fərqli münasibət gözləyiriksə, bu, hər halda səmimi olmayan, ancaq məcburiyyətdən qaynaqlanan riyakar münasibətlərin formalaşmasına zəmin yaradacaqdır. Biz bir növ aşağı vəzifədə hər hansı işlə məşğul olarkən yaltaq və riyakar bir işçi, yuxarı vəzifədə olarkən isə təkəbbür dolu bir idarəçi olacağıq. Belə olan təqdirdə həm Allahın sevməyəcəyi bir qul olma vəsfinə sahib olacaq, həm də digər müsəlman qardaşımızın şəxsiyyət və vüqarını zədələmiş olacaq və onun həqiqi bir müsəlman şəxsiyyəti kimi formalaşmasına bugünkü davranış modelimiz mənfi örnək olacaq. Sual verilsə ki, bu şəkildə formalaşdırma bizim sadəcə Allaha qul olma düsturumuza uyğundurmu? "O rüku olmasa dünyada əyilməz başlar" deyən M. A. Ersoy da müsəlman şəxsiyyətinin həqiqi ucalığını ifadə etmirmi? Həmçinin bu gün bu formatda yetişdirilən bir nəsil sabah dəyərlərini fədakarcasına və şəxsiyyətini əzdirmədən qoruya biləcəkmi?! Yoxsa pis vərdiş formasını alan bu dəyərsiz dəyərlər anlayışıyla yaşayacaq? Kim hansı dəyərlərlə yaşayırsa o dəyərlərin daşıyıcısdır. Həmçinin Allahın bir quluna müstəsna olaraq verdiyi bir şəxsiyyəti kimsənin məhdudlaşdırma hüququ varmı?! Cavab yoxdursa deməli yol aydındır. Biz adımıza yaraşan şəkildə müsəlman şəxsiyyətinə sahib olmalı və müsəlmanlıqla bir araya sığmayan hər haldan Allaha sığınmalıyıq!

Kamran MƏMMƏDOV
kamran_mz@mail.ru

## ƏJDAHA

Bir gün ilantutan dağlara ova çıxmışdı. Şikarını yenicə axtarmağa başlamışdı ki, bərk qar yağdı. Kor-peşman qayıdanda yamacda bir əjdaha ölüsü gördü. Bundan sevincək oldu, çünki indi quşbeyin adamları əvvəlkindən də artıq heyrətləndirəcəkdi. Əjdahanı qarın içiylə sürüyə-sürüyə Bağdada gətirdi. Heyvanın cəmdəyi lap saray sütununa oxşayırdı...

Ancaq əjdaha sağ idi, sadəcə soyuqdan donmuş, bədəni keyimişdi. İlantutan Bağdada çatan kimi hər yana səs yayıldı, camaat möcüzəyə baxmaq üçün meydana axışdı. Hamı ilantutanın igidliyinə heyran qaldı. İlantutanın bazarı yaxşı gətirmişdi, şəhərdə ağıllı-dəli hamını başına yığmışdı. Günəş isə yavaş-yavaş qızırdı. Buludlar dağılır, əjdahanın donu açılırdı. Sonra əjdaha yavaş-yavaş tərpənməyə başladı. Meydanda bir məhşər qopdu ki, gəl görəsən... Camaat hay-küylə, vay-şivənlə meydandan qaçmağa üz qoydu. Qaça bilməyən ayaq altında qaldı. İlantutan qəfil canavara ürcah gələn quzu kimi quruyub qalmışdı...

Əjdaha əvvəlcə ilantutanı uddu. Sonra da qabağına çıxanları bir-bir içəri ötürdü...

*Buz bağlamış ehtirasını isitməyə can atma. Nə qədər ki ehtirasın əjdaha kimi oyanmayıb, ömrün peşmançılıq yükü altında ağrımayacaq.*

## GÜCLÜ OLMAQ QORXUSU

Bir quldur camaata göz verib işıq vermirdi. Günün günorta çağı zirehli libasını geyinib camaatın gözü qarşısında at oynadırdı. Günlərin birində bir oxatan qəfil onunla rastlaşdı. Nişançı qorxusundan cəld oxu yaya qoyub hazır vəziyyətdə dayandı. Atlı quldur yalvarmağa başladı:

- Amanın günüdü, nişançı, vurma məni! Gövdəmin iriliyinə baxma. Gücsüzəm, gücsüzlüyümə bağışla! Bir quş məndən ürəklidi, inan!

- Neynək, - atıcı dedi, - Allahına şükür elə ki, səni qorxudan atmadım. Əgər belə zəifsənsə, nahaq pəhləvan donuna girmisən. Belə cildə girməklə sən hər kəsdən əvvəl özün üçün qorxu yaratmısan.

## QARANLIQDA ŞİRİ SIĞALLAYAN

Bir gecə şir tövlənin bacasından girib bir kişinin cöngəsini yedi. Sonra da cöngənin yatdığı yerə yıxılıb toxluqdan xumarlanmağa başladı. Gecəyarısı kişi cöngəni yoxlamağa getdi. Qaranlıqda şiri cöngə hesab eləyib tumarladı. Şir öz-özünə düşündü: "Allaha şükür elə ki, qaranlıqdı, yoxsa qorxudan bağrın yarılardı".

*Müdrik insan, mahiyyətinə bələd olmadığını sığallamağa çox da tələsmə, qaranlıq dağılanda hər şey bəlli olacaq.*

# ULDUZ FALI

Bir astroloq ulduz falına baxaraq Harun ər-Rəşid haqqında "bu yaxında öləcək!" demişdi. Əlbəttə, bu sadəcə astroloji hesablama, yəni ulduz falı idi. Kimə öləcəksən deyilsə mütləq şoka düşər. Harun ər-Rəşid də bu eşitdiyindən istər-istəməz təsirlənmişdi. Birdən falçının dediyi düz çıxsa, necə olacaq? deyə qorxmağa başladı və dərdini baş vəzir Bərməkiyə açdı. Bərməki:

- Ulduz falına inanmayın! Bu yəhudi sizə yalan söyləyir, desə də Harun ər-Rəşid sakit ola bilmirdi. Bərməki Harun ər-Rəşidə istərsəniz bunu sizə isbat edə bilərəm, dedi. Harun ər-Rəşid:

- Əlbəttə! Çox istərdim, dedi.

Bərməki yəhudi falçını yanına çağırdı. Ondan: "Xəlifənin tezliklə öləcəyinə əminsənmi?" deyə soruşdu. Yəhudi: "Bəli, əlbəttə!" -dedi. Bərməki falçıya dedi:

- De görüm, ulduz falına görə sən nə qədər yaşayacaqsan?

Yəhudi öz falına da baxdı və "mən hələ çox yaşayacağam" -dedi.

Baş vəzir Bərməki bu cavabı eşidən kimi falçının boynunu vurdurmaq üçün bir cəllad çağırtdırdı. Cəllad gəldi və həmin yəhudi falçının boynunu vurdu. Bərməki Harun ər-Rəşidə yerdə cansız yatan falçını göstərib belə dedi:

- Padşahım! Əgər bu adamın dediyi düz olsaydı, heç ölərdimi? Öz ömrünü hesablaya bilməyən bu bədbəxt başqalarının nə qədər yaşayacağını hardan bilsin? Deməli, ulduz falı yalandır və falçılar ən yalançı millətdir.

# YENİ NƏŞRLƏR




"İpəkyolu" Nəşriyyatı tərəfindən nəşr olunmuş bu kitab aləmlərə rəhmət olaraq göndərilən Həzrət Məhəmmədin nümunəvi əxlaqından bəhs edir. 130 səhifədən ibarət kiçik həcmli, lakin Varlıq Nuru haqda konkret və qaneedici məlumat ehtiva edən kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.
Rəsulullah Allahın ən çox sevdiyi bəndəsi, məxluqatın ən şərəflisi, hər iki dünyanın iftixar səbəbi və bəşəriyyətin qurtuluş vəsiləsidir.

"İpəkyolu" Nəşriyyatı / Bakı – 2012
İSBN: 978-9952-462-02-9

Şərq-Qərb mətbəəsində nəşr olunmuş bu kitabda Türk dünyasının böyük şairi, dramaturq yazar Nəcib Fazil Qısakürəyin seçilmiş əsərləri ilə yaxından tanış olacaqsınız. Heyət tərəfindən Azərbaycan türkcəsinə uyğunlaşdırılan kitabda ustadın hekayələri, "Sakarya Türküsü", "Çilə", "Qaldırımlar", "Peyğəmbər" kimi məşhur şeirləri, o cümlədən "Pul" və "Bir adam yaratmaq" adlı iki pyesi yer alır.
Azərbaycan oxucusuna təqdim oluna kitab axıcı üslubda tərcümə edilmişdir. 550 səhifəlik əsər nəfis şəkildə tərtib olunmuşdur.




"Şərq – Qərb" Mətbəəsi / Bakı – 2011
İSBN 978-9953-34-291-8

"Ziya" mətbəəsində nəşr olunmuş "H.Z.A. Tağıyevin qız məktəbinin tarixindən" adlı kitab Azərbaycanın görkəmli ictimai xadimi, sahibkar, xeyriyyəçi, "millətin atası" Hacı Zeynalabdin Tağıyevin təsis etdiyi müsəlman dünyasında ilk dünyəvi qız məktəbinin yaranma tarixinə həsr edilmişdir. Kitabda toplanan arxiv sənədləri, o illərin dövrü mətbuatının materialları, xatirələr, fotoşəkillər bu tədris müəssisəsinin müsəlman dünyasında qadın təhsilinin inkişafı üçün əhəmiyyəti barədə geniş təsəvvür yaradır. Azərbaycan və rus dilində hazırlanmış 392 səhifəlik kitabın müəllifi Fərhad Cabbarovdur.

"Ziya" Mətbəəsi / Bakı - 2011
İSBN: 978-9953-8024-1-2

Ülvi MƏMMƏDOV

# QƏZA

Vaxtilə bir dərviş Ramazan axşamlarının birində iftara dəvət olunmuşdu.

Dərviş işa namazının girməsinə az qalmış evə qayıtdı və xanımından süfrə açmasını istədi. Xanımı:

"Sən qonaqlıqda deyildinmi? Nə yeməyi?" –deyə soruşanda dərviş:

"Heç soruşma. Çox yesəm, arxamca "əsl dərviş deyil" demələrindən qorxdum. Ona görə də heç nə yeyə bilmədim" –dedi.

Xanımı:

"Oldu. Onda sən axşam namazını qıl, mən də süfrə açım."

Dərviş:

"Amma mən axşam namazımı qıldım."

Xanımı cavab verdi:

"Sən arxanca danışarlar deyə yemək yemədiyinə görə, arxanca yaxşı danışsınlar deyə namazı da uzatmısan yəqin ki. Haydı, axşam namazını bir daha qıl, mən də süfrəni hazırlayım."

# GÖZƏL YEMƏK

Aşpazlığı ilə ad çıxarmış bir qadın axşam yeməyinə gələcək oğlu və yeni gəlini üçün mətbəxdə yemək bişirirdi. Həmin axşam uzun illərin ailə dostu da yeməyə dəvət olunmuşdu.

Gözlənən qonaqlar gəlib süfrə ətrafında əyləşdikdə çox qəribə bir hadisə ilə qarşılaşdılar. Yaşlı qadının o gecə bişirdiyi yeməklər adamın iştahını küsdürəcək qədər bərbad idi. Şirniyyatlar unlu, kartoflar yanmış, ət isə demək olar ki, bişməmişdi. Oğlu, yeni gəlini və ailə dostu vəziyyəti qadına hiss etdirməmək üçün əllərindən gələni etsələr də yemək əsnasında o qədər də iştahlı görsənmirdilər. Nəhayət qonaqlıq sona çatdı və yeni evlənən cütlük analarının əlini öpərək evə getdi. Ailə dostu isə bir az da qaldıqdan sonra getməyi düşünürdü. Oğlu və gəlini getdikdən sonra yaşlı qadından soruşdu:

"Sənin yaxşı aşpaz olduğunu adım kimi bilirəm. Mənə bu gecəki yeməklərin nə üçün bərbad olduğunu deyə bilərsənmi? Sən ya xəstələnmisən, ya da nə isə problemin var."

Yaşlı qadın gülümsəyərək cavab verdi:

"Xeyr, heç bir problemim yoxdur. Qəsdlə belə etdim. Bu yeməkdən sonra oğlum əsla ikidəbir anasının yeməklərini yada salıb xanımının qəlbini qırmayacaq."

# "Gəncliyə Yardım Fondu "101 Arzunu Gerçəkləşdir" layihəsinin yekun mərasimi olaraq 101 uşağı sevindirdi

23.04.2012-ci il tarixdə Gəncliyə Yardım Fondunda keçirilən tədbir Azərbaycan Respublikasının dövlət himni və Türkiyə Cümhuriyyətinin istiqlal marşı ilə açıq elan edildi.

Tədbirdə çıxış edən Gəncliyə Yardım Fondunun prezidenti cənab Ahmet Tecim bütün uşaqları bu bayram münasibətilə təbrik etdi və dövlət rəhbərliyinin uşaqlara göstərdiyi qayğıdan danışdı.

Eyni zamanda tədbirdə Gənclər və İdman nazirinin müavini cənab İntiqam Babayev, Prezident Aparatı İctimai Siyasi Əlaqələr şöbəsinin məsul işçisi cənab Rasim Mirzəyev, Nazirlər Kabineti Aparatının sektor müdiri cənab Ramin Talıblı, Türkiyə Cumhuriyyəti Bakı Böyükelçisinin müstəşarı cənab Rza Kaan Yılmaz, Millət vəkilləri Zahid Oruc və Etibar Hüseynov, tanınmış müğənni Zeynəb Dostəliyeva və Bakı Şəhər Yol Polisinin İctimai Əlaqələr şöbəsinin müdiri polkovnik Vaqif Əsədov çıxış edərək uşaqlara Gəncliyə Yardım Fondu tərəfindən hazırlanmış hədiyyələri təqdim etdilər və öz ürək sözlərini qonaqlarla bölüşdülər.

Qeyd edək ki, hər il ənənəvi olaraq Gəncliyə Yardım Fondunun təşkilatçılığı ilə "8 Mart Beynəlxalq Qadınlar Günü" münasibətilə "Azərbaycan və Türkiyə xanımlarının əl işləri Xeyriyyə Sərgisi" təşkil edilir. Sərgidən əldə olunan gəlir Azərbaycan xalqının milli problemlərinə həsr olunur. Belə ki, keçən illərdə təşkil edilən sərgilər; "Xocalıya Yardım", "Qarabağ Suallar və Faktlar" kitabının nəşri, "Yeddi Uşaq Evinə Yardım", "Qocalar Evinə Yardım", "Uşaqlar Arasında Dişlərə Qulluq Mədəniyyətinin Formalaşması", "Qarabağ Suallar və Faktlar" kitabının türk dilində nəşri, "25 əlilə əlil arabası" "50 imkansız tələbəyə bir illik təqaüd" və "Yüz imkansız ailəyə bir illik ərzaq yardımı" layihəsinə həsr edilmişdir.

Məhz, builki xeyriyyə sərgisindən də əldə olunan vəsaitlər, Gəncliyə Yardım Fondunun "101 Arzunu Gerçəkləşdir" adlı xeyriyyə layihəyəsində istifadə olunmuşdur. Layihə çərçivəsində Bakı şəhərində yaşayan, yetim və kimsəsiz 6-12 yaşlarında olan 101 uşaq seçilərək onların arzuladıqları hədiyyələr alınmış və onlara təqdim edilmişdir.

## GYF-də Ramil Səfərovla canlı bağlantı quruldu

14.04.2012-ci il tarixində Gəncliyə Yardım Fondunda Azebook Network kitab şəbəkəsinin təşkilatçılığı ilə Ramil Səfərovun macar dilindən tərcümə etdiyi Ferens Molnarın "Pal küçəsinin oğlanları" kitabının təqdimat mərasimi keçirilib. Povest ilk dəfə Azərbaycan dilində nəşr olunub. Kitabin redaktoru və ön sözün müəllifi filologiya üzrə fəlsəfə doktoru, dosent Asif Rüstəmlidir. "Məhbəsə sığmayan azadlıq eşqi" adlı müqəddiməsində Asif Rüstəmli Budapeştdə olarkən Ramil Səfərovla görüşündən, kitabın bədii məziyyətlərindən bəhs edib.

Ön sözdə vurğulanır ki, "Pal küçəsi təkcə budapeştli məktəblilər üçün deyil, bütün dünya gəncləri üçün azadlıq uğrunda, işğalçılara qarşı mübarizədə vətənpərvərlik meydanı, həyat universitetidir".

Pal küçəsinin oğlanları" kitabının satışından əldə edilən gəlir Ramil Səfərovun növbəti kitabının nəşrinə sərf olunacaq. Tədbirdə Ramil Səfərovla da canlı telefon bağlantısı quruldu.

Ramil Səfərov bu əsərdən əvvəl Macarıstanın tanınmış xanım yazıçısı Maqda Sabonun "Qapı" romanını müvəffəqiyyətlə orijinaldan Azərbaycan dilinə tərcümə etmiş və kitab 2011-ci ildə Bakıda çap olunmuşdu.

O bədii ədəbiyyat nümunələrini macar dilindən azərbaycancaya çevirən ilk tərcüməçidir.

## Mübarək Doğum Həftəsinə Həsr Olunmuş Tədbir

16.04.2012-ci il tarixində PARK İNN hotelində T. C Bakı Büyükelçiliyi Din Xidmətləri müşavirliyinin təşkilatçılığı ilə Hz. Peyğəmbərimizin doğum gününə həsr olunmuş "Hz. Peyğəmbər, Qardaşlıq Əxlaqı və Qardaşlıq Hüququ" adı altında tədbir keçirilmişdir.

Tədbir Azərbaycan Respublikasının düvlət himni və Türkiyə Cümhuriyyətinin istiqlal marşı ilə açıq elan edilmişdir. Sonra Qurani-Kərimdən ayələr tilavət edilərək Peyğəmbərimizin həyat tərzini üzündə əks etdirən video rolik qonaqlara nümayiş etdirilmişdir.

Tədbiri çıxış süzüylə açıq elan edən T.C. Baku Büyükelçiliyinin Din Xidmətləri müşaviri cənab Sadiq Eraslan bütün qonaqları salamlayaraq Hz. Peyğəmbərimizin nümunəvi şəxsiyyətindən bəhs etmişdir.

Bir sıra millət vəkili, düvlət nümayəndələri, o cümlədən Azərbaycandan və Türkiyədən iş adamlarının iştirak etdiyi tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Salman Musayev, Dini Qurumlarla İş üzrə Düvlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Bakı Düvlət Universiteti İlahiyyat Fakultəsinin dekanı akademik Vasim Məmmədəliyev və Türkiyə Diyanət Vəqfi Mütəvəlli heyət başçısı və Diyanət İşləri Başqanının vəkili Mazhar Bilgin çıxış edərək Hz. Peyğəmbərimizin qardaşlıq əxlaqı və hüququndan danışmışdırlar.

Tədbirin sonunda ilahilər səsləndirilmiş, yemək süfrəsi açılmış, bütün qonaqlara hədiyyə kitablar və gül verilmişdir.

# tuwa

**HICABLI QADIN GEYİMLƏRİNDƏ BOL ÇEŞİD VƏ İNANILMAZ UCUZLUQ**

**MANTO**
**TUNİK**
**KOSTYUM**
**YUBKA**
**ŞALVAR**
**KOFTA**
**HİCAB**

**İRFAN ABUNƏÇİLƏRİNƏ ƏLAVƏ ENDİRİMLƏR NƏZƏRDƏ TUTULUR**

**Ünvan:** LÖKBATAN BİNƏ BAZARI, Sıra 7A, korpus 3, mağaza: 28 - 29

**Tel:** (+994 55) 208 72 55
(+994 12) 408 4043

**Eyni ünvanda yeni dizaynda**